RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 100 (8416) CÜMƏ, 22 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Milli-mənəvi dəyərlərin böyük təəssübkeşi

Azərbaycan xalqı dünyada zəngin milli-mənəvi dəyərləri və adət-ənənələri ilə tanınır. Tarixən müxtəlif ictimai-siyasi quruluşlarda yaşamasına baxmayaraq, xalqımız özünün mənəvi dəyərlərini qoruyub saxlamış, ona ən qiymətli sərvəti kimi yanaşmışdır.

Milli-mənəvi dəyərlər ictimai şüurun formalaşmasında və vətəndaş həmrəyliyinin təmin olunmasında mühüm rol oynayır. Xalqımız tarixin ən keşməkeşli mərhələlərində belə milli-mənəvi dəyərlərini qoruyaraq onlara sadiq olmuşdur. Keçmiş sovetlər ittifaqı dövründə hakim ideologiyanın qadağalarına rəğmən milli-mənəvi dəyərlərimiz müəyyən inkişaf yolu keçmişdir.

Xalqımızın milli-mənəvi dəyərləri qədim tarixə malikdir. Azərbaycan şifahi xalq ədəbiyyatında ailəyə hörmət, vətəni sevmək, qonaqpərvərlik, başqasına yardım göstərmək, müxtəlif dini inanclara hörmətlə yanaşmaq kimi keyfiyyətlər təbliğ olunur. Atalar sözləri, bayatılar, dastanlar, rəvayətlər və digər janrlarda milli-mənəvi dəyərlərlə bağlı fikirlər irəli sürülür. Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim yazılı abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanında xalqımızın zəngin tarixi, mədəniyyəti və milli-mənəvi dəyərləri, inancları, eləcə də məişətinin xüsusiyyətləri öz əksini tapmışdır. Eposda milli adət-ənənələrin qorunub saxlanılması, vətəninə layiq, düşmənə qarşı mübarizədə igidlik göstərən gənclərin tərbiyə olunması məsələlərinə geniş yer verilmişdir. Dastanda sağlam ailə münasibətləri tərənnüm edilir, ailənin möhkəmliyinin və nəslin davamlı şəkildə artması nəticəsində xalqın qüdrəti və gücünün yenilməz olduğu göstərilir. “Kitabi-Dədə Qorqud”da ağsaqqal sözü uca tutulur, oğuz igidləri səfərə getməmişdən qabaq onunla məsləhətləşirlər. Dastanda qopuza qəhrəmanlıq ruhu yaradan vasitə kimi baxılır və ona hörmət milli-etnik ənənə hesab olunur.

Qədim dövr Azərbaycan ədəbiyyatında, incəsənətində və fəlsəfəsində milli-mənəvi dəyərlər özünün bədii-estetik, fəlsəfi ifadəsini tapmış, doğma yurda, adət-ənənələrə bağlılıq obrazlı, poetik şəkildə ifadə olunmuşdur. Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığında humanist və ümumbəşəri dəyərlər mühüm yer tutur. Qeyd edək ki, milli-mənəvi dəyərlərə hörmət xalqımızın tolerant xarakter daşıyan həyat tərzi ilə bağlı olmuşdur. Qədim və orta əsrlərə aid olan ədəbi, fəlsəfi əsərlər, incəsənət nümunələri multikultural baxışlarla, irqi, milli və dini ayrı-seçkiliyi rədd edən, insanları birliyə və humanizmə çağıran ideyalarla zəngindir.

Ardı 4-cü səh.

## Görülən işlərin mənbəyi xalqın iradəsidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı videoqəbulda çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Mən sizi bu gün Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçıları həbs olunub. Bu barədə ictimaiyyətə məlumat verilib. İndi istintaq gedir və hüquq mühafizə orqanları hər şeyi müəyyən edəcək. Artıq ictimaiyyət məlumatlandırılıb. Ağstafa və İmişli rayonlarında icra hakimiyyəti başçıları tərəfindən edilmiş bu pozuntular digər rayonlarda da mövcud olub və bir neçə icra hakimiyyəti başçısı artıq istintaqa cəlb edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, talançılığa qarşı mübarizə sözdə yox, əməldə aparılır və bu mübarizə bundan sonra da aparılacaq. İndi həm yerli, həm də mərkəzi icra orqanlarının fəaliyyəti araşdırılır və yol verilmiş bütün pozuntular üzə çıxacaq.

Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı, ölkəmizin dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bütün xoşagəlməz hallara qarşı öz işinizlə ciddi mübarizə aparmalısınız. Korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökü kəsilməlidir. Bu sahədə sizin dövlət tərəfindən böyük dəstəyiniz olacaqdır, eyni zamanda, geniş ictimaiyyəti də bu işlərə cəlb edin.

Ardı 2-ci səh.

## Rəcəb Tayyib ƏRDOĞAN:

## “Azərbaycan xalqını ən səmimi duyğularımla təbrik edirəm”

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Cənab Prezident, əziz qardaşım.

Can Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə millətim adından və şəxsən öz adımdan Zati-alinizi və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını ən səmimi duyğularımla təbrik edirəm.

Müstəqilliyinin bərpasından bəri gündən-günə daha da inkişaf edən Azərbaycanın qətiyyətli liderliyinizlə əldə etdiyi mühüm nailiyyətlərə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şuramızın sonuncu iclasında fəxrlə bir daha şahid oldum. İnamla və qüdrətli bir şəkildə Cümhuriyyət tarixinin 102-ci yaşına qədəm qoyan Odlar Yurdunun bütün sahələrdə böyük addımlar atmağa davam edəcəyinə ürəkdən inanıram.

Mükəmməl səviyyədə olan strateji əlaqələrimizi “Bir millət, iki dövlət” ruhu ilə daha da genişləndirmək istiqamətindəki qarşılıqlı iradəmizdən böyük məmnunluq duyuram. Qəlbləri birlikdə döyünən ölkələrimizin indiyə qədər olduğu kimi, bundan sonra da milli məsələlərimizdə qardaşlıq həmrəyliyini davam etdirəcəklərinə, bölgəmizdə sülh, rifah və sabitliyə sanballı töhfələr verməyə davam edəcəklərinə inamım qətidir.

Fürsətdən istifadə edərək, bir daha Zati-alinizə cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifah arzularımızı çatdırıram.

*Hörmətlə,*

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

## Qətiyyətli liderlik və əbədi müstəqillik



**Tarixən belə olub - insan toplumları birləşərək xəyal və arzusunda olduqları cəmiyyəti və dövləti yaratmağa, beləliklə həm də fərdi azadlıqlarını təmin etməyə çalışıblar. Qoca tarix insanlığın bu məramından qığılcım alan saysız-hesabsız qanlı müharibələrin, kütləvi qırğın və məhrumiyyətlərin şahidi deyilmi?! Azad, ədalətli və müstəqil cəmiyyətdə yaşamaq istəyinə bütün varlığı ilə hakim kəsilən ayrı-ayrı toplumları və xalqları dünən də, bu gün də birləşdirən ortaq məqsəd isə budur: müstəqil dövlətdə və azad cəmiyyətdə yaşamaq!**

Dünyanın qədim etnoslarından olan Azərbaycan xalqı da hər zaman müstəqil dövlətə sahib olmaq arzusu ilə yaşayıb. Minilliklər boyu bu əlverişli məkanda saysız-hesabsız dövlətlər təşəkkül tapsa da, müəyyən xarici basqılar, eləcə də daxili çəkişmələr üzündən mövcudluqlarını uzun müddət saxlaya bilməyiblər. Yalnız XVI əsrin əvvəllərində qüdrətli sərkərdəmiz Şah İsmayılın hərbi, siyasi və diplomatik fəaliyyəti nəticəsində böyük bir coğrafiyada Səfəvilər dövləti yaradıldı və azərbaycanlıların mərkəzləşmiş dövlət qurmaq arzusu ilk dəfə olaraq xəyallardan reallığa çevrildi.

Ardı 5-ci səh.

## Humanizm və yardımsevərliyin İlham Əliyev örnəyi

Azərbaycan pandemiya dövründə nəinki özünü təmin edən, eləcə də 13 dövlətə və beynəlxalq təşkilata yardım göstərən ölkə kimi nüfuzunu yüksəldir

Bəşəriyyəti çənginə alan qlobal böhran yəqin ki, bir müddətdən sonra virus əleyhinə vaksinin tapılması ilə aradan qalxacaq. Ancaq pandemiyanın iqtisadi fəsadlarını, ümumdünya maliyyə böhranının təsirlərini tezliklə aradan qaldırmaq mümkün olmayacaq.

Ümumiyyətlə, qlobal pandemiyanın dünya iqtisadiyyatına təsiri ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi təhlilçilər dünya iqtisadiyyatının 2020-ci ildə 28-30 faiz kiçiləcəyini, bəziləri isə 2020-ci ilin dünya iqtisadiyyatı üçün “itirilmiş il” olacağını söyləyirlər.

### Pandemiya dövründə də makroiqtisadi sabitliyi qoruyan ölkə

Həqiqətən də, bu bir faktdır ki, pandemiya iqtisadiyyat üçün çox təhlükəlidir. Çünki bütün dövlətlər gözlənilmədən yaranan qlobal böhrana qarşı mübarizə aparmaq üçün kifayət qədər maliyyə vəsaiti sərf edərək müxtəlif layihələr həyata keçirmək məcburiyyətində qalırlar. Bu da gələcəkdə ölkə iqtisadiyyatına təbii ki, ağır təsir göstərməlidir.

Ardı 4-cü səh.

## “Gördüyünüz işlər xalqımız tərəfindən böyük qürur hissi ilə qarşılanır”

Koronavirus pandemiyası dövründə Azərbaycan əhalisinin sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması, xalqımızın bu bəladan daha az itkilərlə xilas olması istiqamətində gördüyü mühüm işlərə görə Prezident İlham Əliyevə respublikamızın bütün guşələrindən minnətdarlıq məktubları ünvanlanmaqda davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir qismini təqdim edir.

Zəngilan rayonundan məcburi köçkün, 8-ci sinif şagirdi **Murad Şirinov** yazır: “Möhtərəm cənab Prezident, biz məktəblilər Sizi çox sevirik, Sizdən daim valideyn qayğısı görürük. Sizə olan hisslərimiz o qədər güclüdür ki, onları sözlə ifadə etməyə çətinlik çəkirik. Bizə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirik.

Ardı 5-ci səh.

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Görülən işlərin mənbəyi xalqın iradəsidir



Əvvəli 1-ci səh.

Çünki ictimai nəzarət xoşagəlməz hallara qarşı mübarizədə çox önəmli amildir. Mən şadam ki, son müddət ərzində ictimai nəzarət mexanizmləri təkmilləşir. Birinci növbədə siz vəziyyəti təhlil etməlisiniz və insanları narahat edən problemləri həll etməlisiniz. Sizin həll etməyə gücünüz çatmayan məsələlər barədə müvafiq mərkəzi icra orqanlarına məlumat verin ki, bu məsələlər operativ şəkildə öz həllini tapsın.

Bizim bölgələrdə gördüyümüz işlərin mənbəyi xalqın iradəsidir. Bildiyiniz kimi, artıq regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra olunur. Bütün proqramların tərtibatında yerlərdən gələn təkliflər üstünlük təşkil edir. Mənim bölgələrə, rayonlara çoxsaylı səfərlərim və səfərlər əsnasında vətəndaşlarla görüşlərim bu proqramların hazırlanmasında xüsusi rol oynayır. Çünki bölgələrdə elə işlər görülməlidir ki, o işlər öz həllini gözləyir, insanlar əziyyət çəkir. Ona görə vəziyyəti təhlil edərkən siz, ilk növbədə, vətəndaşları narahat edən məsələləri aşkarlamalısınız.

O ki qaldı infrastruktur layihələrinə, üç Dövlət Proqramının icrası nəticəsində infrastruktur layihələrinin böyük hissəsi öz həllini tapıb. Bunu indi hər kəs görür, bölgələrdə yaşayan insanlar görür və eyni zamanda beynəlxalq təşkilatlar da bunu qeyd edir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlığına görə Azərbaycan dünyada 2-ci yerdədir. Yolların keyfiyyətinə görə 30-cu yerlərdədir. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, demək olar, qazlaşdırma layihələrinin böyük əksəriyyəti başa çatıb, qazlaşdırmanın səviyyəsi 96 faizdir. İçməli su layihələri bütün şəhərlərdə icra edilir, ya artıq başa çatıb, ya da ki, başa çatmaq üzrədir. Bütün bunlar dövlət tərəfindən görülmüş işlər, qoyulan investisiyalardır. Ona görə infrastruktur layihələrinin əsas hissəsi öz həllini tapıb. Ona görə sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, artıq bu möhkəm təməl üzərində öz işinizlə rayonların sosial-iqtisadi inkişafını təmin edəsiniz. Eyni zamanda bütün işlər ədalətli görülməlidir. Ədalət sizin işinizdə əsas prinsip olmalıdır və indiki şəraitdə, pandemiya dövründə insanlara daha çox yardım, kömək göstərilməlidir. Yerlərdə, ilk növbədə, bunu icra başçıları, icra strukturları etməlidirlər.

Əlbəttə, Azərbaycan dövləti bütün lazımi tədbirləri görür. Azərbaycanda pandemiya ilə əlaqədar tətbiq olunan mexanizm hesab edirəm ki, ən yüksək qiymətə layiqdir. Biz yüz minlərlə insanın sosial vəziyyətinin pisləşməsini nəzərə alaraq, onlara yardım göstəririk. Bu yardım insanları bu ağır vəziyyətdə ruhlandırır, eyni zamanda, onların maddi imkanlarının təmin edilməsində rol oynayır. Biz bunu edirik ki, insanlar bu vəziyyətdən çıxsın və az itkilərlə çıxsınlar. İlk növbədə, koronavirusla bağlı mübarizədə görülmüş işlər yüksək qiymətə layiqdir. Eyni zamanda koronavirusa görə işini itirən, yaxud da ki, müvəqqəti olaraq itirən insanların da yardımına dövlət gəlməlidir. Ona görə dövlət hər zaman bu işlərdə aparıcı rolunu oynayacaq və siz də yerlərdə Azərbaycan dövlətinin nümayəndələrisiniz. Ona görə sizin işinizdən, eyni zamanda, ümumiyyətlə, Azərbaycanda görülən işlər haqqında da təsəvvür yaranır. Əgər icra hakimiyyəti başçısı öz vəzifə borcunu yerinə yetirmirsə, əksinə, insanları incidir, insanların əmlakına göz dikir, kimsəsiz insanlara çatacaq yardımı, ictimai işlərə cəlb edilmiş insanların ödəniş kartlarını oğurlayır, talançılıqla, rüşvətxorluqla, korrupsiya ilə məşğul olursa, onda insanlar hansı fikirdə ola bilərlər? Siz işdə də, məişətdə də nümunə göstərməlisiniz və elə işləməlisiniz ki, insanlar sizdən razı olsunlar. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam. Ona görə vəziyyəti dərindən təhlil edin, həllini gözləyən məsələləri həll etmək üçün səylər göstərin və gücünüz çatmayan işlərin həll edilməsi üçün Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq dövlət orqanlarına müraciət edin.

İndiki şəraitdə ölkəmizin uğurlu inkişafı, ilk növbədə, qeyri-neft sektorunun hesabına təmin ediləcək və əlbəttə ki, sahibkarlığın inkişafı daha böyük əhəmiyyət daşıyır. Biz bu işlərlə çox uğurla məşğul oluruq və bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb. Ancaq bəzi hallarda sahibkarlar çətinliklərlə üzləşirlər. Hansısa layihəni icra etmək, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə üzləşirlər. Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, bəzi məmurlar onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol vermək olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizə aparılır. Ölkələr öz təkliflərini irəli sürürlər ki, investorları cəlb etsinlər. Ona görə siz, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə rayonların inkişafına töhfə versinlər. Amma bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cür əziyyət verilir. Buna yol vermək olmaz.

Kənd təsərrüfatının inkişafı bizim üçün prioritet sahə olaraq qalır. İndiki şəraitdə kənd təsərrüfatının müasir üsullarla inkişafı ilə əlaqədar çox geniş proqramlar icra edilir. Bu sahədə də yerli icra orqanlarından çox şey asılıdır. Ona görə, müvafiq dövlət qurumları ilə birlikdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülməlidir, insanlar işlə təmin edilməlidir, məhsuldarlıq artmalıdır və kənd təsərrüfatının inkişafını şərtləndirən bütün amillər təmin edilməlidir, o cümlədən suvarma suyunun ədalətli bölüşdürülməsi məsələsi. Bu sahədə də böyük pozuntular var, yerlərdən mənə şikayətlər gəlir. Keçən il də quraqlıq olub, bu il də quraqlıqdır və biz sudan böyük qənaətlə istifadə etməliyik. Bütün bu işləri düzgün təhlil etmək və tədbirlər planı hazırlamaq üçün mənim sərəncamımla xüsusi komissiya yaradılıb və artıq komissiyanın ilkin araşdırmaları mənə təqdim edilib. Biz bunu demək olar ki, təxmin edirdik, bəzi hallarda itkilər 40-50 faiz səviyyəsindədir. Bu, dözülməzdir. Belə israfçılıq böyük problemlərə gətirib çıxarır. Ona görə siz bu sahədə bütün vəziyyəti təhlil edin. Əlbəttə, mərkəzi icra orqanları bu məsələ ilə məşğuldurlar və komissiyanın tərkibində nazirlər təmsil olunur. Amma yerlərdə siz bu işlərə ciddi fikir verin, təftiş aparın və məlumat verin. Çünki biz əgər ancaq bu itkiləri azaltsaq, kənd təsərrüfatında daha böyük irəliləyişə nail ola bilərik. Eyni zamanda suyun ədalətli bölüşdürülməsi məsələsi də çox aktualdır. Çünki mənə verilən məlumatlara görə, bəzi hallarda icra başçılarına yaxın olan sahibkarlara su verilir, ancaq kənar adamlara su verilmir. Bu, ədalətsizlikdir və buna son qoyulmalıdır.

Ödənişli ictimai iş yerlərinin yaradılması artıq bir neçə ildir ki, təmin edilir və biz bu kateqoriyaya aid olan insanların sayını ildən-ilə artırırıq. Biz 30 mindən başlamışıq. Bu il mənim göstərişimlə 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır və bu istiqamətdə artıq nəticələr vardır. Ancaq əfsuslar olsun ki, bəzi icra başçılarının cinayətkar əməllərinə görə, bu sahə də ən korrupsiyalaşmış və ən çirkin sahəyə çevrilib. O işlərə cəlb edilən insanların ödəniş kartları icra başçıları tərəfindən oğurlanırdı. Həbs olunmuş bütün icra başçılarının iş otaqlarından və onların yaxınlarının iş otaqlarından yüzlərlə ödəniş kartı çıxır. Bu pul kasıb, özünə iş tapa bilməyən insanlara çatmalıdır. Xüsusilə pandemiya dövründə bütün ölkələrdə iş yerləri ixtisar edilir, bütün ölkələrdə işsizlik artır, o cümlədən Azərbaycanda. Belə bir vəziyyətdə kasıb insanın puluna göz dikmək vicdansızlıqdır və cinayətdir. Ona görə bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib ki, onlar ümumi nəzarət və eyni zamanda monitorinq aparsınlar. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bu işləri ciddi təhlil edin, görün nə qədər insan cinayətkar icra başçıları tərəfindən bu imkandan məhrum edilib. Biz bu ədaləti bərpa etməliyik.

Bir sözlə, sizin fəaliyyətiniz rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafında özünü göstərməlidir. Çünki açıq demək istəyirəm, təxminən son 17 il ərzində bölgələrdə görülmüş işlərin ən azı 90 faizi mənim təşəbbüsümlə görülüb, dövlət proqramları çərçivəsində görülüb, 16 min kilometr avtomobil yolu çəkilib, bütün elektrik təsərrüfatı demək olar ki, yenidən qurulub. Biz qazlaşdırmanı təxminən 100 faizə çatdırmışıq, 3500-dən çox məktəb, 700-dən çox tibb ocağı, 50-yə yaxın Olimpiya İdman Mərkəzi, nə qədər Gənclər evləri, mədəniyyət sarayları, digər sosial obyektlər tikilib. Bütün bunları biz mənim bilavasitə göstərişimlə dövlət büdcəsi hesabına etmişik. İndi baxaq görək icra başçıları nə iş görüblər, hansı daşı daş üstünə qoyublar. İndi bütün bu işlər təftiş edilir. Mənim ayırdığım vəsait hesabına tikilmiş evlər, yəni, qəzalı evlərin əvəzinə tikilmiş evlərin tikintisində də oğurluq baş verir, həm tikintidə, həm də ki, ondan sonra mənzillərin bölüşdürülməsində. Bu evlərin insanlara tamamilə pulsuz verilməsi nəzərdə tutulubdur. Amma həm tikintidə pul oğurlanır, həm də mənzillər rüşvət müqabilində paylanılır. Deməli, insanlardan pul qopardılır. İndi təftiş aparılır və bütün bu pozuntularda əli olan vəzifəli şəxslər məsuliyyətə cəlb ediləcək. İcra başçısı ona göstərilən etimadı öz işi ilə doğrultmalıdır.

Bölgələrdə gedən işlər daim mənim nəzarətimdədir. Mənim çoxsaylı səfərlərim, eyni zamanda, o məqsədi güdür ki, görülmüş işlərin icrasını görüm, tanış olum və insanları narahat edən problemləri insanlardan eşidim və biz bunları həll edək. Amma deyə bilərəm ki, bir çox hallarda icra hakimiyyəti başçısı öz iş otağından çıxmır. Bütün icra hakimiyyəti başçıları, o cümlədən siz bütün kəndlərdə insanlarla görüşməli, insanları narahat edən problemləri insanların dilindən eşitməli və ondan sonra qərar qəbul etməlisiniz. Elə məsələ var ki, sadəcə olaraq, laqeydlik, biganəlik və məsuliyyətsizlik ucbatından həll olunmur. Elə məsələ var ki, heç böyük vəsait, böyük əziyyət tələb etmir. Sadəcə, onların vecinə deyil. Onlar hesab edirlər ki, orada ağa kimi rəhbərlik etməlidirlər, insanları incitməlidirlər, öz şəxsi maraqlarını təmin etməlidirlər. Belə təfəkkürlə yaşayan insanların bizim aramızda yeri yoxdur. Onların yeri başqa yerdədir. Ona görə, siz bütün kəndlərdə olmalısınız, bütün problemləri vətəndaşlardan öyrənməlisiniz və onları həll etməlisiniz. Bir daha demək istəyirəm ki, yerli səviyyədə həlli mümkün olmayan problemlər dərhal müvafiq mərkəzi icra orqanlarına çatdırılmalıdır.

Bu gün Azərbaycan yeniləşir, müasirləşir və yeni kadrlardan çox şey asılıdır. Sizin fəaliyyətinizdən çox şey asılıdır və insanların inamı, əhvali-ruhiyyəsi, ədalətə inanması bir çox hallarda yerli rəhbərlərin işindən asılıdır. Siz elə işləməlisiniz ki, insanlar sizə inansınlar, sizi dəstəkləsinlər və sizin işinizdən razı olsunlar.

Bunu da bilməlisiniz ki, sizin fəaliyyətinizə diqqət göstəriləcək, nəzarət olunacaq. Elə işləməlisiniz ki, mənim tərəfimdən verilən bütün tapşırıqlar yerinə yetirilsin, Ağstafa və İmişli rayonlarının uğurlu inkişafı təmin edilsin.

* * *

**Elçin RZAYEV:**

- Möhtərəm cənab Prezident, göstərdiyiniz bu böyük etimada görə Sizə dərindən təşəkkür edirəm. Bu etimaddan irəli gələn məsuliyyətin dərinliyini dərk edərək, Sizi əmin etmək istəyirəm ki, üzərimə düşən, dövlətimizə bağlı vəzifələrin həyata keçirilməsinə və qarşıya qoyulan məqsədlərə ləyaqətlə nail olmaq üçün yorulmadan var qüvvəmlə çalışacağam. Çox sağ olun, cənab Prezident.

Prezident **İlham ƏLİYEV:**

- Sağ ol.

* * *

**Seymur ORUCOV:**

- Möhtərəm cənab Prezident. Mən də bu çox böyük və məsuliyyətli etimada görə öz adımdan və Yeni Azərbaycan Partiyasının gəncləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Bu etimad mənim timsalımda YAP gənclərinə olan etimaddır. Bu etimad bütün Azərbaycan gəncliyinə böyük stimuldur. Siz dəfələrlə öz çıxışlarınızda demisiniz ki, Azərbaycan gəncliyinə güvəniniz və etimadınız böyükdür.

Gənclərin bu gün ölkənin ictimai-siyasi həyatında fəal olmasının əsası Ulu Öndərimiz tərəfindən qoyulmuşdur. Çünki möhtərəm cənab Prezident, 1990-cı illərin əvvəllərində hakimiyyəti zəbt etmiş AXC-Müsavat dövründə Azərbaycan gəncliyini zorla ali təhsil ocaqlarından, iş yerlərindən mitinq bölgələrinə və onların yarıtmaz liderlərinə dəstək tədbirlərinə aparırdılar. Gənclərimiz çox bədbin ruhda idilər. Lakin Ulu Öndərimiz hakimiyyətə gəldikdən sonra Azərbaycan gəncliyində gənclik ruhu özünə qayıtdı. Ulu Öndər bütün Azərbaycan gəncliyini vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Siz də bu gün bu siyasəti yeni üslubda, çox möhtəşəm formada həyata keçirirsiniz.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycan gəncliyi Sizə borcludur. Ona görə borcludur ki, Siz bizi dövlət orqanlarında önə çəkirsiniz. Bununla bərabər, Siz və Birinci vitse-prezidentimiz biz gənclərin, Azərbaycan xalqının canını da qoruyursunuz. Çünki bu gün dünyada baş verən bəladan göründü ki, bir çox dövlətlər var idi, böyük dövlətlər, onlar bu prosesi Sizin qədər dəqiq, vaxtında, az itki ilə idarə edə bilmədi. Bu da Sizin liderlik xüsusiyyətinizdən irəli gəlir. Çünki lider çox çətin gündə bilinir. Biz gənclər bununla fəxarət hissi keçiririk. İstər Türk Şurasının, istərsə də Qoşulmama Hərəkatının Zirvə görüşlərinin keçirilməsi ilə bağlı bütün dövlət və hökumət başçılarının Sizin çağırışınıza səs verməsi, dünyanı bu bəladan birgə qurtarmaq səyləriniz bütün dünyaya nümunədir və Azərbaycanın dünyada artan nüfuzundan xəbər verir.

Möhtərəm cənab Prezident, mən də Sizə söz verirəm ki, var gücümlə Heydər Əliyev siyasətinə xidmət edəcəyəm, rayonun inkişafı və abadlaşması üçün var qüvvəmi səfərbər edəcəyəm və dövlətimə, millətimə, Sizə ləyaqətlə xidmət edəcəyəm. Yolunuz yolumuzdur, cənab Prezident. Bir daha təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

Prezident **İlham ƏLİYEV:**

- Sizə uğurlar arzulayıram.

## "Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyanın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

YUNESKO-nun 1958-ci il 3 dekabr tarixli "Nəşrlərin beynəlxalq mübadiləsinə dair" Konvensiyası Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2020-ci il*

## "GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Nizamnaməsində dəyişikliklər edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2019-cu il sentyabrın 26-da Nyu York şəhərində GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Xarici İşlər Nazirləri Şurasının 34-cü iclasında imzalanmış "GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Nizamnaməsində dəyişikliklər edilməsi haqqında" Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2020-ci il*

## Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında diplomatik nümayəndəlik, konsulluq və daimi nümayəndəlik əməkdaşlarının ailə üzvlərinin haqqı ödənilən əmək fəaliyyəti haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında diplomatik nümayəndəlik, konsulluq və daimi nümayəndəlik əməkdaşlarının ailə üzvlərinin haqqı ödənilən əmək fəaliyyəti haqqında" 2020-ci il fevralın 21-də Roma şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2020-ci il*

## "Azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısı olan dövlətlər arasında dövriyyədə olan əmtəələrin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydası haqqında 1999-cu il 8 oktyabr tarixli Sazişdə dəyişikliklərin edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Aşqabad şəhərində keçirilmiş 2019-cu il 31 may tarixli iclasında imzalanmış "Azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısı olan dövlətlər arasında dövriyyədə olan əmtəələrin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydası haqqında 1999-cu il 8 oktyabr tarixli Sazişdə dəyişikliklərin edilməsi barədə" Protokol Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2020-ci il*

## "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisindən tranzit qaydası haqqında 1999-cu il 4 iyun tarixli Sazişdə dəyişikliklər edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Aşqabad şəhərində keçirilmiş 2019-cu il 31 may tarixli iclasında imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisindən tranzit qaydası haqqında 1999-cu il 4 iyun tarixli Sazişdə dəyişikliklər edilməsi barədə" Protokol Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2020-ci il*

## "Əməkdar hüquqşünas" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı prokurorluq işçilərinə "Əməkdar hüquqşünas" fəxri adı verilsin:

Usubov Rüstəm Sabir oğluna
Əsgərov Namiq Əli oğluna.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2020-ci il*

## S.V.Orucovun Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Seymur Vaqif oğlu Orucov Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2020-ci il*

## E.A.Rzayevin İmişli Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elçin Adil oğlu Rzayev İmişli Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2020-ci il*

## Ə.M.Qarayevin Azərbaycan Respublikasının Mədəniyyət naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əbülfəs Mürsəl oğlu Qarayev Azərbaycan Respublikasının Mədəniyyət naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına həm şəxsən öz adımdan, həm də xalqımın adından səmimi təbriklərimi çatdırıram.

Milli bayramınız bu il xüsusilə çətin şəraitdə qeyd edilir. Ümid edirəm ki, koronavirus böhranının böyük çağırışlarının öhdəsindən birgə qlobal səylərimizlə gələ biləcəyik.

Biz son 28 ildə ikitərəfli münasibətlərimizin çox müsbət inkişafını müşahidə etdik. Ümid edirik ki, iqtisadi və sosial islahatlar kursu əməkdaşlığımız üçün növbəti perspektivlər açacaqdır. Mənim ölkəm bütün səviyyələrdə şəxsi söhbətlər və səfərlər vasitəsilə Azərbaycanla bu sıx münasibətlərin davam etdirilməsini və dərinləşdirilməsini həvəslə gözləyir.

Sizə və xalqınıza, ilk növbədə, cansağlığı, sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Respublika Günü münasibətilə Sizə və bütün Azərbaycan xalqına öz adımdan və Polşa xalqı adından ən xoş təbriklərimi və arzularımı çatdırıram.

Ortaq qəhrəmanlarımız general Maçey Sulkeviç və polkovnik Vəli bəy Yadigarın tarixi irsinə toxunaraq, ölkələrimizin və cəmiyyətlərimizin iqtisadi və sosial inkişafı üçün üzərimizə xüsusi bir məsuliyyət qoyan müasir çağırışları xatırlamalıyıq. Ümid edirəm və tam əminəm ki, ölkələrimizin iqtisadi inkişafı həm ikitərəfli, həm də beynəlxalq səviyyədə bu hədəflərə çatmağa xüsusilə kömək edəcəkdir.

Sizə Azərbaycanın suverenliyinin möhkəmləndirilməsində, hərtərəfli inkişafında və bölgədə, eləcə də Avropa İttifaqı ilə güclü beynəlxalq münasibətlərin qurulmasında davamlı uğurlar diləyirəm.

*Hörmətlə,*

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Birləşmiş Ərəb Əmirlikləri xalqının bu bayram münasibətilə böyük fərəh hissi keçirdiyini xalqınıza çatdırmağı Sizdən xahiş edirəm.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və davamlı uğurlar, dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Xəlifə bin Zayed Al NAHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və dost xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə müdrik rəhbərliyinizlə inkişaf və rifah arzulayıram.

*Hörmətlə,*

***Məhəmməd bin Zayed Al NAHYAN,***
***Əbu-Dabinin vəliəhdi, Silahlı Qüvvələrin Ali Baş Komandanının müavini***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi, Azərbaycana və onun xalqına ürəkdən gələn rifah və inkişaf arzularımı qəbul etməyinizi xahiş edirəm.

Mən bu əlamətdar gündə Bolqarıstan Respublikasının Azərbaycan Respublikası ilə strateji əməkdaşlıq əlaqələrinin inkişafını davam etdirmək niyyətini bir daha təsdiqləyirəm.

Xalqlarımızın dostluq əlaqələri ölkələrimiz arasındakı əməkdaşlığın təməl hissəsidir. Mən qəti əminəm ki, bizim əməkdaşlığımız inkişaf tempi ilə davam edəcəkdir və bu gün rastlaşdığımız qlobal pandemiya şəraitinin ortaya çıxardığı çətinliklərin öhdəsindən gəlməkdə əsas olacaqdır.

Hörmətli cənab Prezident, ən dərin ehtiramımı qəbul edin.

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi çatdırıram.

Çex Respublikası və Azərbaycan Respublikası arasındakı möhtəşəm əlaqələri yüksək qiymətləndirirəm. İnanıram ki, Sizin tezliklə Çex Respublikasına səfəriniz olacaq və bu səfər bütün sahələrdə əməkdaşlığımızın gələcək inkişafına töhfə verəcək.

Zati-aliləri, Sizə uğurlar və xoşbəxtlik, Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Miloş ZEMAN,***
***Çex Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Monteneqro xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi, ölkənizin tərəqqisi və dost Azərbaycan xalqının rifahı üçün ən xoş arzularımı çatdırıram.

Monteneqro və Azərbaycanın COVID-19 pandemiyasının yaratdığı çətin zamanlarda çox sıx və zəngin əlaqələrinə ehtiramla yanaşması dostluq və həmrəyliyimizi təsdiq etdi. Bu fürsətdən istifadə edib Zati-alinizə dövlətinizin, bizim azərbaycanlı tərəfdaşlarımızın və dostlarımızın Monteneqronu mühüm ianələrlə və qoruyucu tibbi ləvazimatlarla təmin etmələrinə görə təşəkkür edirik. Mübarizəmizin ən həssas zamanında bu kömək vətəndaşlarımızın sağlamlığı və həyatlarını qorumaq üçün xüsusi əhəmiyyətə malik idi. Bu, ölkələrimizin davamlı dostluğunun növbəti təsdiqi idi. Monteneqro bu dostluğu yüksək dəyərləndirir və bunu hər zaman xatırlayacaq. Eyni zamanda, ölkənizin əzmli səylərlə və səmərəli tədbirlərlə koronavirus pandemiyasının yayılmasının qarşısını almaq istiqamətində gördüyü işlər təqdirəlayiqdir.

Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Milo CUKANOVİÇ,***
***Monteneqronun Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Eyni zamanda, ölkələrimizi birləşdirən dostluq əlaqələrinin möhkəmləndirilməsini davam etdirmək istəyimi Sizə bir daha ifadə edirəm.

Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və davamlı uğurlar, dost Azərbaycan xalqına isə müdrik rəhbərliyinizlə rifah və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Şeyx Məhəmməd bin-Rəşid Al MAKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş Naziri, Dubayın Əmiri***

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında 2020-ci ilin iyun ayında vətəndaşların videoqəbulu CƏDVƏLİ

| *Qəbulu olan şəxs* | *Qəbul günləri* |
|---|---|
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 12, 25 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri** Əliyev Şahin Məhərrəm oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 18 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 17 |
| * * * | |
| **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezidentin İşlər müdiri** Şahbazov Oqtay Qəşəm oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 4 |

***QEYD:***
Vətəndaşların qəbulu **videoqəbul** formatında keçirilir.
Prezident Administrasiyasının videoqəbulu üçün yerli icra hakimiyyəti orqanlarının Vətəndaşların qəbulu otaqlarında müvafiq texniki imkanlar yaradılmışdır.
**Qəbula yazılma vaxtı:** bütün iş günləri saat 9:00-dan 13:00-dək.
Qəbula yazılmaq üçün **əlaqə vasitələri:**
**www.president.az** saytının "Qəbula yazılmaq" bölməsi
**Telefonlar:** 492-22-30; 492-15-01; 492-44-97.
**WhatsApp və Skype əlaqəsi üçün:** (050) 410-11-22; (055) 510-11-22; (077) 510-11-22.
**Qəbul saat 14:00-dan başlayır.**

# ABŞ-ın Azərbaycana yatırdığı sərmayələr 14 milyard dollara çatıb

## Azərbaycanda Amerika Ticarət Palatası ilə işgüzar görüş keçirilib



Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") birgə təşkilatçılığı ilə videokonfrans formatında görüş keçirilib.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Mikayıl Cabbarov iştirakçılara Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sistemli və ardıcıl islahatlar nəticəsində yaradılmış əlverişli biznes və investisiya mühiti, xarici investisiyaların təşviqi sahəsində görülən işlər və sair barədə ətraflı məlumat verib.

M.Cabbarov tədbirin işgüzar əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparmaq üçün əlverişli platforma olduğunu, ölkələrimiz arasında iqtisadi tərəfdaşlığın inkişafında "AmCham Azərbaycan"ın səmərəli fəaliyyətini qeyd edib. ABŞ-la iqtisadi əməkdaşlıqdan danışan nazir diqqətə çatdırıb ki, Azərbaycan ABŞ-la iqtisadi-ticarət əlaqələrinin inkişafında maraqlıdır və əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atılır.

Bildirilib ki, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən sənaye, kənd təsərrüfatı, tikinti, xidmət və digər sahələrdə ABŞ-ın 257 şirkəti fəaliyyət göstərir. Ölkələrimiz investisiyalar sahəsində də uğurla əməkdaşlıq edir. Belə ki, ABŞ-ın Azərbaycana yatırdığı sərmayələrin həcmi iqtisadiyyatın neft-qaz sektorunda 12,8 milyard ABŞ dolları olmaqla ümumilikdə 14 milyard dollara çatıb. Bununla da, ABŞ Azərbaycanda ikinci ən böyük investordur.

Xarici ölkələrin təcrübəsi, investisiya sahəsində müasir tendensiyalar və sərmayə sazişlərinin praktikası, Beynəlxalq Maliyyə Korporasiyasının ekspertlərinin rəyləri nəzərə alınmaqla "İnvestisiya fəaliyyəti haqqında" yeni qanun layihəsinin hazırlandığını diqqətə çatdıran İqtisadiyyat naziri "AmCham Azərbaycan"ın da prosesə önəmli töhfə verdiyini qeyd edib.

Koronavirus (COVID-19) pandemiyasının iqtisadiyyata mənfi təsirləri barədə fikirlərini bildirən M.Cabbarov infeksiyanın yayılmasına qarşı mübarizədə xalqımızın dövlətlə birlik və həmrəylik nümayiş etdirdiyini, Azərbaycan hökumətinin pandemiya və qlobal böhran situasiyasına çevik reaksiya verdiyini, iqtisadi, makroiqtisadi stabilliyin qorunması məqsədilə sistemli və operativ tədbirlər görüldüyünü diqqətə çatdırıb. Vurğulanıb ki, insanların sağlamlığının qorunması tədbirləri ilə yanaşı, pandemiyanın iqtisadiyyata təsirlərinin minimuma endirilməsi istiqamətində təsdiq edilmiş Tədbirlər Planına əsasən, zərərçəkmiş sahibkarlara və muzdlu işçilərə maliyyə dəstəyinin göstərilməsi, iş yerlərinin qorunması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri həyata keçirilir. Postpandemiya dövrü üçün əsas hədəflərdən biri iqtisadi artımın yeni modelinin həyata keçirilməsidir. Azərbaycanda tikinti, dağ-mədən, neft-kimya, rəqəmsal iqtisadiyyat, nəqliyyat, ticarət və logistika, telekommunikasiya, kənd təsərrüfatı və emal sənayesi, turizm sektorlarının inkişafı prioritet istiqamətlərdəndir.

İqtisadiyyat naziri ABŞ şirkətlərini bu sahələrdə investisiya imkanlarını nəzərdən keçirməyə dəvət edib. Bununla yanaşı, Azərbaycanda infrastruktur layihələri də daxil olmaqla bir sıra layihələr üzrə dövlət-özəl tərəfdaşlığı mexanizminin daha geniş tətbiqi nəzərdə tutulur ki, bu da investorlarla əlaqələri genişləndirmək üçün əlverişli imkanlar yaradır.

M.Cabbarov Azərbaycanda iqtisadiyyatın rəqəmsallaşdırılmasının hədəf kimi müəyyən edildiyini, Davos İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı üzrə regional mərkəzinin Bakıda yaradılmasının önəmini, rəqəmsal iqtisadiyyatın qurulması sahəsində ölkəmizin ABŞ-la əməkdaşlığa hazır olduğunu bildirib.

Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına önəm verdiyini bildirən ABŞ-ın ölkəmizdəki səfiri Li Litzenberqer Azərbaycanda uğurlu iqtisadi siyasət həyata keçirildiyini, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması sahəsində həyata keçirilən islahatların əhəmiyyətini, ölkəmizin cəlbedici turizm resurslarını qeyd edib, pandemiya ilə mübarizədə və iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Görüşdə biznes dairələrini maraqlandıran məsələlər üzrə müzakirələr aparılıb, suallar cavablandırılıb.

# Mart ayından bugünədək 2 min 200 kubmetrdən çox təhlükəli tibbi tullantı xüsusi qurğularda yandırılaraq zərərsizləşdirilib

Pandemiya dövründə əmələ gələn təhlükəli tibbi tullantıların idarə edilməsi virusun yayılmasının qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Ekologiya və Təbii Sərvətlər Nazirliyin əsas diqqət yetirdiyi sahələrdən biri koronavirus infeksiyası ilə mübarizə çərçivəsində təhlükəli tibbi tullantıların idarə olunması ilə bağlı olub. Ölkədə həyata keçirilən təxirəsalınmaz tədbirlərin tərkib hissəsi kimi Operativ Qərargahın tələb və tövsiyələrinə uyğun olaraq nazirlik təhlükəli tibbi tullantıların idarə olunmasının əlaqələndirilməsini həyata keçirir və həmin tullantıların utilizasiyasını təşkil edir.

AZƏRTAC xəbər verir ki, bunu mayın 21-də Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev bildirib.

Onun sözlərinə görə, hazırda bu işlər Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və Səhiyyə Nazirliyi ilə birgə Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş "Tibbi tullantıların idarə olunmasına dair tələblər"ə uyğun olaraq həyata keçirilir: "Qeyd edim ki, müalicə profilaktika müəssisələrinin fəaliyyəti nəticəsində əmələ gələn tibbi tullantılar morfoloji tərkibinə və təhlükəlilik dərəcəsinə görə maye, bərk və toz şəklində olaraq, müvafiq təhlükəli tullantılar təsnifatına aid edilirlər. Tibbi tullantılar epidemioloji və toksikoloji təhlükəlilik dərəcəsinə görə dörd sinfə bölünür - A, B, C və D.

B və C sinfinə aid tullantılar təhlükəli və xüsusi təhlükəli tullantılar hesab olunur. Pandemiya dövründə məhz bu tullantıların idarə olunması ciddi nəzarətə götürülüb. Hazırda onlar kateqoriyalar üzrə çeşidlənərək nazirlik tərəfindən təmin edilən müxtəlif rəngli xüsusi torbalara toplanır. B sinfinə aid təhlükəli tullantılar sarı, C sinfinə aid xüsusi təhlükəli tullantılar isə qırmızı torbalara toplanır. Tullantılar xüsusi avtomaşınlarla daşınaraq müvafiq qurğularda termik üsulla 800-1200C temperaturda zərərsizləşdirilərək məhv edilir.

Mart ayından bu günədək ümumilikdə 50 tibb müəssisəsi və müvəqqəti karantin üçün ayrılmış mehmanxanalarda əmələ gəlmiş 2 200 kubmetrdən çox təhlükəli tibbi tullantı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ilə birlikdə daşınaraq - Abşeron yarımadası, Lənkəran, Şəmkir və Quba rayonlarında yerləşən xüsusi qurğularda yandırılaraq zərərsizləşdirilib.

AQTA tərəfindən cənub zonasında 13 nöqtədən təqribən 150, nazirlik tərəfindən digər 37 nöqtədən təqribən 2 054 kubmetr tullantı zərərsizləşdirilib.

Bu zaman əmələ gəlmiş təqribən 40 kubmetr kül tullantısı isə daşınaraq Təhlükəli Tullantılar poliqonunda utilizasiya edilib. Həmin işlər bu gün də davam etdirilir.

Məlumat üçün bildirmək istərdim ki, respublikada təhlükəli tullantıların daşınması və utilizasiyası sahəsində ixtisaslaşmış özəl şirkətlər bu işlərin həyata keçirilməsində bizə yaxından kömək edir".

# Azərbaycanda koronavirusa daha 118 yoluxma faktı qeydə alınıb, 87 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 118 yoluxma faktı qeydə alınıb, 87 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1956-cı il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 3749 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2340 nəfər müalicə olunaraq sağalıb, 44 nəfər vəfat edib, 1365 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 42 nəfərin vəziyyəti ağır, 60 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 252.496 test aparılıb.

# Milli Məclis komitələrinin onlayn iclasları keçirilib

Mayın 21-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, onlayn iclasda komitənin sədri Ziyafət Əsgərov iclasın gündəliyi barədə məlumat verib. Bildirib ki, gündəliyə "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında" Sazişin təsdiq edilməsi barədə" qanun layihəsi və "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında Saziş"ə Əlavə Protokolun təsdiq edilməsi barədə" qanun layihəsi daxildir.

Komitə sədri məlumat verib ki, birinci sənəd Azərbaycan və Türkiyə arasında uzun illər mövcud olan dostluq əlaqələri çərçivəsində hərbi əməkdaşlığı daha da möhkəmləndirmək və Azərbaycan Ordusunun inkişafına töhfə vermək məqsədi daşıyır.

İkinci sənəd isə iki ölkə arasında təhlükəsizlik üzrə əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edir.

Fikir mübadiləsindən sonra hər iki sənəd Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Onlayn iclasda komitə üzvləri Hikmət Məmmədov, Aqil Abbas, Əminə Ağazadə, Kamal Cəfərov, Elşad Mirbəşiroğlu, Oqtay Əsədov, Nurlan Həsənov, Erkin Qədirli, Elman Məmmədov, Aydın Mirzəzadə, Arzu Nağıyev, Bəxtiyar Sadıqov və Nizami Səfərov iştirak ediblər.

* * *

Mayın 21-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitə sədri Musa Quliyev gündəliyə iki məsələ - "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinin daxil edildiyini diqqətə çatdırıb. Hər iki sənəd ikinci oxunuşda təqdim olunub.

Komitə sədri qeyd edib ki, birinci oxunuşda hər iki layihə komitə iclasında ətraflı müzakirə edilib, faydalı fikirlər səslənib. Eyni zamanda, Milli Məclisin son plenar iclasında hər iki məsələ birinci oxunuşda geniş müzakirə olunub və qəbul edilib. Bildirilib ki, "Ünvanlı dövlət sosial yardımı haqqında" qanuna 11 dəyişiklik edilib və 10-cu maddə yenidən işlənib. Dəyişikliklərin hamısı humanist məqsədlərə xidmət edən, yoxsul insanların dövlət yardımına əlçatanlığını daha da genişləndirən müddəalardır. Sənəd ölkə Prezidentinin ünvanlı sosial yardımın çevrəsini daha da genişləndirmək, əlçatanlığı asanlaşdırmaq, şərtləri yumşaltmaq barədə tövsiyəsinin əsasında hazırlanıb.

Məlumat verilib ki, "Ünvanlı dövlət sosial yardımı haqqında" qanuna nəzərdə tutulan düzəlişə əsasən sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 1 il müddətinə təyin olunub. Mövcud variantda bu müddət 2 ilə bərabərdir.

Qanunun 10-cu maddəsi isə yeni redaksiyada təklif olunur. Burada qeyd edilir ki, sosial yardım almaq üçün müraciət edilən zaman ailəyə sosial yardımın təyin olunmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar barədə tam və düzgün məlumat verməlidir. Sosial yardım təyin edildikdən sonra ailənin gəlirlərində dəyişiklik baş verdikdə, bu barədə müvafiq quruma 15 iş günü müddətində məlumat verməlidir. Sosial yardımın dayandırılmasına və ya məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar aşkarlandıqda, sosial yardımın ödənişi dayandırılır və ailənin sosial yardım almaq hüququna yenidən baxılır. Maddədə digər vacib məqamlar da öz əksini tapıb. Təklif olunan dəyişikliklər növbəti illərdə ünvanlı dövlət sosial yardımın və özünüməşğulluq proqramlarının genişləndirilməsini, həmçinin aktiv özünüməşğulluğa yönləndirilməsini təmin edəcək.

İclasda çıxış edən komitə sədrinin müavini Məlahət İbrahimqızı, deputatlar Jalə Əliyeva, İlham Məmmədov, Ziyad Səmədzadə, Vüqar Bayramov, Əziz Ələkbərov, Səttar Möhbalıyev, Arzu Nağıyev qanuna edilən dəyişikliklərin əhəmiyyətli olduğunu söyləyiblər.

Sonra İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi haqqında məlumat verilib. Diqqətə çatdırılıb ki, sənəd "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Qanunda müvafiq tələblərin pozulmasında təqsirkar olan şəxslərin İnzibati Xətalar Məcəlləsinə uyğun məsuliyyət daşıması da öz əksini tapıb. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə yeni maddənin əlavə edilməsi nəzərdə tutulur. Sənəddə uyğunlaşdırma məqsədilə bir sıra digər düzəlişlər də aparılıb.

Tədbirin sonunda hər iki qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Milli-mənəvi dəyərlərin böyük təəssübkeşi

Əvvəli 1-ci səh.

XIX əsr Azərbaycan maarifçilərinin ictimai-siyasi fikirlərində xalqımızın milli-mənəvi dəyərlərinin əhəmiyyətinə geniş yer verilmiş, milli ideya kimi istifadə olunan azərbaycançılıq anlayışı əsasən vətənçilik mənasında işlədilsə də, onun elmi-nəzəri və praktiki əsasları hələ formalaşmamışdı. Maarifçilər azərbaycançılığa ana dilinin, milli-tarixi irsin və mənəvi dəyərlərin inkişafını nəzərdə tutan, insanlara vətənpərvərlik hissi aşılayan dəyər kimi baxırdılar. Həmin dövrdə tərəqqipərvər ziyalılarımız ictimai-siyasi şəraitin təsiri altında yeni siyasi tələblərlə çıxış edir, dövlət müstəqilliyi ideyasını irəli sürürdülər. Azərbaycançılıq məfkurəsi 1918-ci ildə Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə özünün tarixi təcəssümünü, təsdiqini tapdı. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra kommunizm ideologiyasının qadağaları və keçmiş SSRİ-nin milli münasibətlər sahəsində həyata keçirdiyi siyasət azərbaycançılıq ideyasını sıxışdırmağa başladı.

Xalqımızın inkişafında oynadığı əhəmiyyətli roluna, dünya mədəniyyətinin zənginləşməsi üçün verdiyi töhfələrə, vətəndaş həmrəyliyinin təmin olunmasında kommunikativ funksiya yerinə yetirdiyinə görə milli-mənəvi dəyərlərin qorunması və inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Qeyd edək ki, hələ sovet dövründə Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində milli-mənəvi dəyərlərimizin zənginləşməsi istiqamətində mühüm addımlar atılmış, xalqımızın bədii irsi, mədəniyyəti, incəsənəti və ana dilinin inkişafı üçün yeni mərhələnin bünövrəsi qoyulmuşdur. Həmin dövrdə respublikamızda milli özünüdərk hissi güclənmiş, milli kimlik və düşüncə sistemi ilə bağlı baxışlar formalaşmışdır. Adət-ənənələrlə müasirlik arasındakı mənəvi-ideoloji bağlılıq milli mənlik şüurunun inkişafına mühüm təsir göstərmişdir. Milli-mənəvi dəyərlər zənginləşmiş, humanitar və ictimai elm sahələrində böyük irəliləyişlər əldə edilmiş, xalqımızın azadlıq istəyini təcəssüm etdirən əsərlər siyasi-ideoloji hücumlardan qorunmuşdur.

Heydər Əliyev azərbaycançılıq məfkurəsinin ictimai fikirdə özünə mühüm yer tutması istiqamətində prinsipial fəaliyyət göstərmiş, xalqımızın tarixi, dili, ədəbiyyatı və mədəniyyətinin hərtərəfli şəkildə, dərindən öyrənilməsi sahəsində nailiyyətlər əldə edilmiş, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması diqqət mərkəzində saxlanılmışdır. Kommunizm ideologiyasının qoyduğu məhdudiyyətlərə baxmayaraq, milli-mənəvi dəyərlərin tərkib hissələrindən olan ana dilinin inkişaf etdirilməsi sahəsində mühüm işlər görülmüşdür. Heydər Əliyev milli-mənəvi dəyərləri təbliğ etmək üçün, ilk növbədə, xalqımızın öz ana dilini sevməsinin vacib olduğunu nəzərə almışdır. Bu məqsədlə 1974-cü ildə ali məktəb tələbələri üçün hazırlanmış dördcildlik “Müasir Azərbaycan dili” dərsliyi Dövlət mükafatına layiq görülmüş, Azərbaycan SSR-in 1978-ci ildə qəbul olunmuş Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə maddə daxil edilmişdir. Həmin dövrdə Heydər Əliyev milli-mənəvi dəyərlərin ictimai həyatda özünə mühüm yer tutması üçün əlverişli ictimai-siyasi, elmi-mənəvi mühit formalaşdırmışdır. Azərbaycanın görkəmli yazıçıları və mədəniyyət xadimlərinin yaradılmış şəraitdən bəhrələnərək ərsəyə gətirdikləri əsərlər gənc nəslin azərbaycançılıq məfkurəsi ruhunda tərbiyə olunmasında xüsusi əhəmiyyət daşımışdır.

SSRİ-nin süqutundan sonra postsovet məkanında, o cümlədən Azərbaycanda ümumi mülkiyyətə əsaslanan iqtisadi münasibətlər, birpartiyalı siyasi sistem tənəzzülə uğradı. Milli-mənəvi dəyərlərlə bağlı ictimai şüurda formalaşmış stereotiplər yeni ictimai-siyasi sistemdən irəli gələn xüsusiyyətlərlə qarşılaşdı. 1990-cı ilin əvvəllərində Azərbaycanda gedən ziddiyyətli və mürəkkəb proseslər, ictimai şüurun inkişafında varislik prinsipinin pozulması milli-mənəvi dəyərlərə mənfi təsir göstərməyə başladı. Respublikamızda kommunizm ideologiyasından imtina edilsə də, xalqı öz ətrafında səfərbər edən, milli-mənəvi dəyərləri qoruyub saxlamaq və inkişaf etdirmək qabiliyyətinə malik olan milli ideya irəli sürülmədi. “Keçmişə aiddir” deyərək elmi, intellektual, mənəvi, ictimai dəyərlərdən imtina cəhdləri Azərbaycanda ciddi ideoloji boşluq yaratdı.

1993-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyev yenidən siyasi hakimiyyətə gəldikdən sonra milli-mənəvi dəyərlərin inkişafında dönüş mərhələsi başladı, elm, təhsil, mədəniyyət və incəsənətin tərəqqisində böyük nailiyyətlərin bünövrəsi qoyuldu. Milli mənlik şüuru inkişaf etdi, xalqımızın öz tarixini, milli-mənəvi dəyərlərini və soykökünü dərindən öyrənməsi, azərbaycançılıq məfkurəsinin inkişafı üçün əlverişli şərait yarandı, ziyalılar, elm, mədəniyyət, incəsənət, ədəbiyyat nümayəndələri milli ideya ətrafında səfərbər edildi. Ümummilli Lider milli-mənəvi dəyərlərin tərkib hissələrindən biri olan mütərəqqi dini dəyərlərin cəmiyyətdə özünə mühüm yer tutması üçün məqsədyönlü siyasət həyata keçirməyə başladı. Heydər Əliyev ölkəmizdə dini dəyərlərin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: “Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətləridir”. Heydər Əliyevin 2001-ci il 21 iyun tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması dövlət-din münasibətlərinin tənzimlənməsində, dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasında və s. mühüm hadisə oldu. Adət-ənənələrin qorunması, xüsusilə sovet dövründə dağıdılmış islam mədəniyyəti nümunələrinin - məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası sahəsində gördüyü işlər Heydər Əliyevin milli-mənəvi dəyərlərə sadiqliyinin bariz sübutudur.

Heydər Əliyev milli-mənəvi dəyərlərə zidd olan hallara qarşı həmişə barışmaz mövqe tutmuşdur. Cəmiyyətin mənəvi-əxlaqi sahədə gedən prosesləri ilə bağlı Ümummilli Liderin 2001-ci il 13 avqust tarixli bəyanatında qarşıya qoyulmuş məqsəd və vəzifələr mühüm əhəmiyyət daşıyır. Sənəddə mənəvi-əxlaqi dəyərlərə mənfi təsir edən meyillər, onların yaranma səbəbləri və aradan qaldırılması yolları göstərilmişdir. Ölkəmizdə yaradılmış demokratik şəraitdən, fikir və söz azadlığından sui-istifadə edilərək insanların şərəf və ləyaqətinin təhqir edilməsinin yolverilməzliyi, cəmiyyətin mənəvi həyatındakı xoşagəlməz halların aradan qaldırılmasının zəruriliyi sənəddə öz əksini tapmışdır. Heydər Əliyevin həmin bəyanatı verməsi bir sıra səbəblərdən irəli gəlirdi. Məlumdur ki, xalqımızın milli-mənəvi dəyərlərinin ümumbəşəri dəyərlər əsasında formalaşması sosio-mədəni ilkin şərtlər çərçivəsində baş verir ki, onların da içərisində ölkəmizin demokratik, hüquqi, dünyəvi dövlət olması xüsusi qeyd edilməlidir. Lakin demokratik şəraitin verdiyi sərbəstlik “ictimai rəy məni maraqlandırmır, özüm bilərəm nə edərəm” düşüncəsi ilə milli-mənəvi dəyərlərə zidd olan davranışlara bəraət qazandırılması kimi başa düşülməməlidir.

Nəzərə alınmalıdır ki, milli-mənəvi dəyərlərə təsir göstərən mənfi meyillər əxlaqi motivlərdən doğan davranışlara, oradan isə əxlaqi tələbləri (insanlara, ailəyə, vətənə, təbiətə və s. münasibət) reallaşdıran əxlaqi münasibətlərə sirayət edə bilər. Bəzən əxlaqi azadlıq anlayışının mahiyyətini düzgün qiymətləndirməyənlər belə hesab edir ki, əgər fərd azaddırsa, o, istədiyi hərəkəti edərək, milli-mənəvi dəyərlərə münasibətini özü istədiyi şəkildə müəyyənləşdirə bilər. Lakin milli-mənəvi dəyərlərə bu cür yanaşma düzgün deyil. Qeyd edək ki, əxlaqi azadlıq dedikdə onu maksimalist mənada (yəni nə istəyirəm, onu da edə bilərəm) başa düşmək yanlışdır. Milli-mənəvi dəyərlərə hörmət etmək insanın ailə, cəmiyyət və dövlət qarşısında üzərinə düşən əxlaqi vəzifələrini dərk etməsi deməkdir. Əxlaqi məsuliyyətin əsas xüsusiyyətlərindən biri bundan ibarətdir ki, o, milli-mənəvi dəyərlərə hörmət edilməsi ilə bağlı insanlarda özünənəzarət və özünüqiymətləndirmə kimi keyfiyyətləri formalaşdırır. Əxlaqi münasibətlər sistemində əxlaqi məsuliyyət məsələsinə etinasız yanaşılması insanlar arasında birgəyaşayış normalarının zəifləməsinə gətirib çıxarardı. Buna görə də fəlsəfi-etik fikir tarixində “insanlığın inkişaf səviyyəsi əxlaqi məsuliyyətin dərəcəsi ilə ölçülür” tezisinin irəli sürülməsi təsadüfi deyildir.

Heydər Əliyev milli-mənəvi dəyərlərə azərbaycançılıq ideyasının tərkib hissələrindən biri kimi yanaşmışdır. “Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” deyən dahi öndər milli-mənəvi dəyərlərin inkişafını müstəqil dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi qiymətləndirmişdir.

Milli-mənəvi dəyərlərin inkişafında ədəbiyyat və incəsənət mühüm rol oynayır. Onlar insanların dünyagörüşünün formalaşmasında, ali əxlaqi dəyərlərin möhkəmlənməsində xüsusi yer tutur. Ədəbiyyat və incəsənət əsərlərindən kənar milli-mənəvi dəyərlərin zənginləşməsi, insanlarda özünütərbiyə və özünənəzarət hissinin formalaşması mümkün deyil. Bu əsərlər cəmiyyətin tərəqqisinə böyük stimul verir, milli-ədəbi irsin nəsillərdən-nəsillərə ötürülməsini təmin edən mühüm vasitələr kimi çıxış edir. Dövlət siyasətində mədəniyyət və incəsənətin xalqlar, millətlər arasında ən yaxşı ünsiyyət vasitəsi kimi əhəmiyyəti nəzərə alınır, onların inkişafına, təbliğinə xüsusi diqqət yetirilir. Heydər Əliyev xarici dövlətlərə səfərləri zamanı soydaşlarımızla keçirdiyi görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq azərbaycançılıq məfkurəsinə, milli-mənəvi dəyərlərə sadiq olmağı, xalqımızın adət-ənənələrini yaşatmağı tövsiyə edir və bununla bağlı bildirirdi: “Bizim hamımızın bir Vətəni var - bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır”.

Heydər Əliyev 1960-1970-ci illərdə olduğu kimi, Azərbaycanın müstəqilliyi dövründə də ana dilinin milli-mənəvi dəyər kimi inkişafı istiqamətində uğurlu siyasət aparmışdır. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında dövlətimizin dilinin Azərbaycan dili olduğu təsbit edildi. Heydər Əliyevin 2001-ci il iyunun 18-də imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında”, 2001-ci il avqustun 9-da imzaladığı “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” fərmanlar Azərbaycan dilinin inkişafı üçün geniş imkanlar yaratmışdır.

Milli-mənəvi dəyərlərin qorunaraq zənginləşməsi üçün gənclərin milli ruhda tərbiyə edilməsi vacib məsələlərdən biridir. Bununla bağlı Heydər Əliyev bildirmişdir: “Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər”. Hamıya məlumdur ki, ailədaxili tərbiyə milli-mənəvi dəyərlərin formalaşmasına təsir göstərən mühüm amillərdəndir. Bu dəyərlərə hörmət hissinin bünövrəsi insanın uşaqlıq, yeniyetməlik və gənclik yaşlarında qoyulur. Uşağın ilkin yaş dövrləri əsasən ailənin təsiri altında keçir. Əgər ailədə yüksək mənəvi-əxlaqi dəyərlər qorunursa, uşaqların əxlaqi şüuru və mənəvi dünyası düzgün istiqamətdə formalaşır. Uşaqlar valideynlərinin davranışlarından əxlaqi nümunələr götürür, onların milli-mənəvi dəyərlərə dair fikirlərini öyrənir. Heydər Əliyev milli-mənəvi dəyərlər sistemində ailənin rolunu daim yüksək qiymətləndirmiş, ona ülvi və müqəddəs dəyərlərin tərənnümçüsü kimi baxmış, milli genefondun saflığının qorunmasında ailəyə böyük əhəmiyyət vermişdir. Bütün bunlardan irəli gələrək Heydər Əliyevin 2006-cı il 6 fevral tarixli fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərin mütərəqqi yolla inkişafını nəzərdə tutan siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilir. Azərbaycan Prezidentinin çoxsaylı fərman və sərəncamları, reallaşdırılan dövlət proqramları cəmiyyətin mənəvi kamilləşməsində, milli-mənəvi dəyərlərə yad təsirlərin qarşısının alınmasında mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin milli mədəniyyətin və mənəvi dəyərlərin qorunması, onların gələcək gənc nəsillərə çatdırılması yönündə apardığı siyasət xalqımızın maraqlarına söykənir. Onun bu sahədəki xidmətləri Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, folkloruna və incəsənətinə yüksək qayğı, diqqət nümunəsidir. Bu istiqamətdə görülən işlər azərbaycançılıq ideyasının və milli-mənəvi dəyərlərin dünyada təbliğini nəzərdə tutan dövlət siyasətindən irəli gəlir.

Milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, Azərbaycan dilinin inkişafı, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi və s. məsələlərin həlli dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Prezident İlham Əliyev milli-mənəvi dəyərlər əsasında ölkəmizin müasirləşməsini nəzərdə tutaraq bildirmişdir: “Müasirlik, yenilik və eyni zamanda milli dəyərlərə, milli köklərə bağlılıq. Bugünkü Azərbaycanı təsvir edən bu ideya artıq hamıya bəllidir. Azərbaycan xalqı daim öz milli köklərinə bağlı xalq olmuşdur və bizim gələcək uğurlarımız da məhz bu amillərlə bağlıdır. Biz tarixi irsimizin, zəngin mədəni irsimizin əsasında müasir, güclü Azərbaycan qururuq”.

Prezident İlham Əliyevin “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli sərəncamları milli-mənəvi dəyərlərimizdən biri olan Azərbaycan dilinin inkişafı üçün böyük tarixi əhəmiyyət daşıyır. Ölkəmizdəki dini konfessiyaların fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılması, mənəvi dəyərlərin qorunması və inkişafı, bu sahəyə dövlət dəstəyinin təmin olunması məqsədilə Prezident İlham Əliyevin 2017-ci il 10 oktyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılmışdır. Fondun xətti ilə dini maarifləndirmə işinin aparılması, dövlət-din münasibətlərinə dair proqramların həyata keçirilməsi və s. milli-mənəvi dəyərlərin inkişafına mühüm təsir göstərir.

Milli-mənəvi dəyərlərin inkişafının əsasında varislik prinsipi dayanır ki, onun vasitəsilə keçmiş tarixi-mənəvi irsin gələcək nəsillərə çatdırılması mümkündür. Tarixi varislik əlaqəsi özündə mənəvi ünsiyyətin ən mühüm formalarını birləşdirir, ictimai şüurun bütün səviyyələrini əhatə edərək onun inkişafının mühüm tərəfi kimi çıxış edir. Obyektiv qanunlar əsasında inkişaf edən cəmiyyət daim yeniləşmələrin, uzun müddət ərzində qərarlaşmış stereotiplərin zamanın tələbi ilə dəyişikliklərə uğramasının, köhnə ilə yeninin, müasirliklə mühafizəkarlığın mübarizəsi məkanıdır. Milli-mənəvi dəyərlərin tərkib hissələrindən biri olan ənənələrlə müasirlik arasındakı qarşılıqlı təsirin öyrənilməsi həmişə aktuallıq kəsb etmişdir. Ənənələrin mahiyyəti onlara yalnız əsrlərlə toplanmış təcrübəni qorumaq qabiliyyətini deyil, həm də yeni şəraitə uyğunlaşmaq və zənginləşmək xüsusiyyətini verir. Milli-mənəvi dəyərlər ənənələr vasitəsilə kommunikativ funksiyasını yerinə yetirir ki, bu halda mənəvi təcrübənin nəsillərdən-nəsillərə ötürülməsi mümkün olur.

Müasir cəmiyyətimizdə milli-mənəvi dəyərlərin mövcud vəziyyəti istər gündəlik həyatda, istərsə də elmi-nəzəri səviyyədə müzakirə olunan məsələlərdən biridir. Xalqımızın milli-mənəvi zənginliyinin dünyada təbliği ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır. Azərbaycan dünya birliyində qədim tarixə, mədəniyyətə və zəngin milli-mənəvi dəyərlərə malik olan dövlət kimi tanınır. Mənəvi-əxlaqi sahədə gedən proseslərin tənzimlənməsi, ictimai şüurun xalqın maraqları çərçivəsində formalaşması üçün ardıcıl dövlət siyasəti həyata keçirilir. Dövlət tənzimləmə funksiyası vasitəsilə milli-mənəvi dəyərlərin qorunub saxlanmasında və zənginləşməsində xüsusi rol oynayır.

Dünyada gedən qloballaşma prosesi milli-mənəvi dəyərlərin qorunmasını müasir dövrün aktual məsələlərindən birinə çevirmişdir. Azərbaycan dövləti qloballaşmanın milli irs və adət-ənənələrimiz üçün yaratdığı təhdidlərin qarşısını qətiyyətlə alır. Qeyd edək ki, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği yalnız dövlətin üzərinə düşən məsuliyyət deyil, həm də bütün vətəndaşların konstitusion vəzifələrindəndir. Azərbaycan Respublikasının Konstitusiyasında göstərildiyi kimi, “Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməlidir”.

Ölkəmizdə mövcud olan tolerant mühit, dinlərarası dialoq milli-mənəvi dəyərlərin və dövlət-din münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradır. Azərbaycan müsəlman dünyasının ayrılmaz hissəsi olaraq islam mədəniyyətinin inkişafına və zənginləşməsinə öz töhfələrini verir. İslam dini xalqımızın həm dini əqidəsi, həm də milli-mənəvi dəyəri kimi insanların həyatının ayrılmaz tərkib hissəsidir. Milli-mənəvi dəyərlərin inkişafında, ailə institutunun sağlam və möhkəm təmələ söykənməsində islam dini əhəmiyyətli rol oynayır.

Multikulturalizmi təbliğ edən dövlətlərdən biri kimi, Azərbaycan dünyada böyük nüfuz qazanıb və Prezident İlham Əliyev bu dəyərin təbliği və təşviqi istiqamətində ardıcıl siyasət aparır. Multikulturalizmin həyat tərzinə çevrildiyi ölkəmizin dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, müxtəlif dövlətlərdəki multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin respublikamızın reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidentinin 2014-cü il 15 may tarixli fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Ölkəmiz Bakı Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Zirvə görüşləri kimi mötəbər tədbirlərin işində yaxından iştirak edir. 2017-ci ilin Azərbaycanda “İslam Həmrəyliyi İli” elan edilməsi islam dininin mütərəqqi dəyərlərinə ölkəmizin sadiqliyinin göstəricisidir.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində xalqımıza məxsus olan maddi-mədəni irsin ermənilər tərəfindən vəhşicəsinə talan edilməsi faktının dünya ictimaiyyətinin nəzərinə çatdırılması ölkəmizin apardığı siyasətin əsas istiqamətlərindəndir. Məlumdur ki, müxtəlif tarixi dövrlərdə ermənilər on minlərlə azərbaycanlını etnik və dini mənsubiyyətinə görə qətlə yetirmiş, onların yaşayış məntəqələrini, mədəniyyət abidələrini, məscid və qəbiristanlıqlarını dağıtmışdır. Ermənilər maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsində islam mədəniyyətinə aid olan bütün muzeyləri, məscidləri və abidələri yerlə-yeksan etmişdir. Paleolit dövrünə aid, dünya əhəmiyyətli arxeoloji abidə olan Azıx mağarası da işğal altındadır və orada ermənilər beynəlxalq hüquqi prinsiplərə zidd olaraq arxeoloji qazıntılar aparırlar.

Gənc nəslin əsrlərin sınağından keçmiş milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi dövlətin diqqət mərkəzindədir. Azərbaycançılıq məfkurəsindən irəli gələn məsələlərə böyük əhəmiyyət verilməsi, ölkəmizdə yaşayan müxtəlif xalqlar və millətlər arasındakı qarşılıqlı anlaşma, yüksək insani keyfiyyətlərə və humanizmə sadiqlik milli-mənəvi dəyərlərə ümumbəşəri xarakter verir. Azərbaycançılıq ideyası



ictimai fikirdə aparıcı yer tutur və o, müstəqil dövlətçiliklə milli-mənəvi dəyərlər arasında vəhdət yaradır, mədəniyyət və sivilizasiyalararası dialoqda körpü rolunu oynayan mütərəqqi dəyərləri (dini dözümlülük, etnik müxtəliflik və s.) təbliğ edir.

Azərbaycan Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yüksək diqqət və qayğısı nəticəsində UNESKO-nun qeyri-maddi mədəni irs siyahısına Azərbaycanın 13 qeyri-maddi mədəni irs nümunəsi (Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, Novruz bayramı, Azərbaycan xalça toxuculuğu sənəti, Azərbaycan tar ifaçılıq sənəti, Qadın baş örtüyü kəlağayının düzəldilməsi, onun simvolizmi və hazırlanması ustalığı, Lahıc misgərlik sənəti, Lavaş, Dolma hazırlama və paylaşma ənənəsi, Kamança, “Dədə Qorqud irsi: dastan mədəniyyəti, nağılları və musiqisi”, Qarabağ atı ilə oynanılan Çövkən atüstü oyunu, Naxçıvanın ənənəvi qrup rəqsləri - yallı, köçəri, tənzərə) daxil edilmişdir.

Heydər Əliyev Fondunun elm, təhsil və mədəniyyət sahəsində həyata keçirdiyi çoxsaylı layihələr milli-mənəvi dəyərlərimizin nəinki ölkəmizdə, bütün dünyada təbliğ olunmasında böyük əhəmiyyət daşıyır. Xalqımızın dünya mədəni irsinə bəxş etdiyi ən mühüm töhfələrdən biri olan muğam sənətinin yaşadılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın gördüyü işləri xüsusi qeyd etməliyik. Ötən illər ərzində fondun dəstəyi ilə xeyli sayda məscid bərpa olunaraq istifadəyə verilmişdir. Fondun milli-mənəvi dəyərlərin dünyada təbliği istiqamətində atdığı addımlar xalqımızın qədim mədəniyyət nümunələrini ermənilərin özününküləşdirməsi kimi mənfur niyyətlərinin qarşısını alır. Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində fondun xətti ilə milli-mənəvi irsin qorunması sahəsində çoxsaylı layihələr həyata keçirilir ki, onları xalqımızın ziyalıları, mədəniyyət və incəsənət xadimləri yüksək qiymətləndirirlər.

Yuxarıda göstərilənlər sübut edir ki, xalqımızın milli-mənəvi dəyərləri tarixi varislik prinsipinə əsaslanaraq inkişaf edir və onlar dünya mədəniyyətinin zənginləşməsində xüsusi yer tutur. Milli-mənəvi dəyərlərin qorunması və təbliği Azərbaycan dövlətinin apardığı siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Ölkəmizdəki mədəniyyətlərarası və dinlərarası dialoq milli-mənəvi dəyərlərin inkişafında böyük əhəmiyyət daşıyır. Azərbaycan dilinin, ədəbiyyat və incəsənətinin inkişafı, adət-ənənələrin, mütərəqqi dini dəyərlərin ictimai həyatda özünə mühüm yer tutması milli-mənəvi dəyərləri zənginləşdirir. Xalqımızın milli-mənəvi irsinin dünyada təbliği ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsində mühüm rol oynayır.

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,***
***Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini***

# Humanizm və yardımseverliyin İlham Əliyev örnəyi

## Azərbaycan pandemiya dövründə nəinki özünü təmin edən, eləcə də 13 dövlətə və beynəlxalq təşkilata yardım göstərən ölkə kimi nüfuzunu yüksəldir

Əvvəli 1-ci səh.

Lakin vaxtında görülən tədbirlər onun miqyasını azaldaraq iqtisadi böhranın nəticələrini yumşalda bilir. Yəni qlobal böhrana qarşı qabaqlayıcı tədbir görən dövlətlər makroiqtisadi sabitliyi qoruya bilirlər. Bu gün dünyanın bəzi dövlətlərində də bu hal müşahidə olunmaqdadır. Hansı dövlətlər ki, koronavirusla mübarizədə vaxtında karantin rejimini tətbiq edərək mühüm tədbirlər həyata keçiriblər, onlarda qlobal böhran ölkənin iqtisadiyyatına ciddi təsir göstərməyib. Hətta bəzi ölkələr nəinki daxili vəziyyəti nəzarətdə saxlayır, hətta pandemiya ilə mübarizədə beynəlxalq təşkilatlara, dövlətlərə müxtəlif formada yardımlar da göstərirlər. Sevindirici haldır ki, sayı az olan bu ölkələr sırasında Azərbaycan Respublikası da var. Bunu sübuta yetirən kifayət qədər fakt mövcuddur. Həm ölkədəki makroiqtisadi durum, həm də Azərbaycanın başqa ölkələrə, təşkilatlara etdiyi yardımlar bunu təsdiq edən reallıqdır.

Öncə ölkədəki duruma nəzər yetirək. Prezident İlham Əliyevin pandemiya dövründə qəbul etdiyi qərarlar, təqdim etdiyi sosial-iqtisadi paket karantin rejimində ölkə ictimaiyyətinin sosial-rifah halının daha da yaxşılaşdırılmasına xidmət edir. Dövlət işləməyən vətəndaşın maaşını ödəyir, ünvanlı sosial yardımlar verir, aztəminatlı ailələrə (2 ay) 190 manat həcmində maliyyə yardımı göstərir. Sahibkarlıq subyektlərinə dəyən zərərin ödənilməsi, iş adamlarına böyük güzəştlərin edilməsi, bu sahədə muzdla işləyənlərin əməkhaqqının ödənilməsi ilə bağlı hazırlanan dövlət dəstəyi proqramları icra olunmaqdadır.

Bundan başqa, Prezident İlham Əliyevin təkcə pandemiya dövründə açılışını etdiyi zavod və fabriklər, xəstəxanalar, ictimai-iaşə obyektləri, yenidən qurulan yol-nəqliyyat infrastrukturu da təsdiq edir ki, ilin əvvəlində qəbul edilən layihələr də icra olunmaqdadır.

Əlbəttə ki, bu, dövlətin iqtisadi qüdrətinin göstəricisidir. Əgər pandemiya ilə mübarizədə dövlətin iqtisadi sıxıntısı olsaydı, təbii ki, nəzərdə tutulan bir çox layihələrin icrası dayandırılar, təxirə salınardı. Ölkəmizdə belə olmadı. Bütün bunları şərtləndirən isə cənab İlham Əliyevin iqtisadi islahatlarının uğurlu nəticələridir.

### Pandemiya ilə mübarizə - qarşılıqlı dəstək sözdə yox, əməldə olmalıdır

Bu gün dünya miqyasında çox böyük hörmətə və yüksək imicə malik olan Azərbaycan dövlətinin pandemiya ilə mübarizədəki missiyası bununla bitmir. Dünyada humanist, insansevər siyasəti ilə tanınan cənab İlham Əliyevin qəbul etdiyi qərarlara əsasən Azərbaycan pandemiya ilə mübarizədə beynəlxalq təşkilatlara, müxtəlif ölkələrə də köməyini əsirgəmir və bu sahədə öz təcrübəsini də bölüşür.

Yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibəsində bu məsələyə toxunan dövlət başçısı vurğulayıb ki, Azərbaycanın bir sıra xarici ölkələrə yardım etməsi yürütdüyü siyasətin tərkib hissəsidir. Çünki xarici siyasətə gəldikdə, Azərbaycan daim əməkdaşlığa üstünlük verib və bunun faydasını görüb. Məhz Azərbaycanın bir neçə önəmli transmilli layihəsi bu prinsip əsasında qurulub və uğur da bu prinsip əsasında əldə edilir. Prezident bildirib ki, ona görə xarici siyasətdə qarşılıqlı dəstək sözdə yox, əməldə olmalıdır, həmrəylik əməldə olmalıdır.

Hazırda Azərbaycanın iki təşkilata - Qoşulmama Hərəkatı və Türk Şurasına sədrlik etdiyini söyləyən cənab İlham Əliyev qeyd edib ki, pandemiya dövründə ölkəmiz hər iki təşkilatın Zirvə görüşünü yüksək səviyyədə keçirib və yekun bəyannamələrdə Azərbaycanın xüsusi rolu qeyd olunub.

Cənab İlham Əliyev hesab edir ki, çətin gündə kimin imkanı varsa, imkanı olmayana kömək etməlidir, həyatda da, siyasətdə də. Bu da Azərbaycanın adət-ənənələrinə uyğundur.

Yardımlara gəldikdə isə, Prezident bugünə qədər Azərbaycanın 3 böyük təşkilata, 13 dövlətə yardım etdiyini vurğulayıb: “Bu günə qədər biz 13 ölkəyə yardım göstərmişik və bu haqda ancaq son vaxtlar danışmağa başlamışıq. Biz təyyarələrlə yardımlar göndərmişik, yüzlərlə ton yardım göndərmişik. Azərbaycanda istehsal olunan dezinfeksiya vasitələri, qoruyucu vasitələr və digər əşyalar göndərmişik, amma bunu reklam etməmişik. Bunu mənəvi borc bilərək etmişik, o ölkələrə ki, onlar bizə müraciət edib. Biz bilirik, o ölkələrin maliyyə vəziyyəti imkan vermir ki, onlar lazımi tədbirləri görsün. Əminəm ki, bu yardım bir çox insanın həyatını xilas etdi. Əsas məsələ budur. Beləliklə, 13 ölkəyə artıq yardım göstərilib, o cümlədən üç beynəlxalq təşkilata yardım göstərilibdir. Bu, bir daha bizim məsuliyyətimizi göstərir”.

Məhz bu faktları əldə əsas tutan Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın bu sahədə gördüyü işləri yüksək qiymətləndirir və respublikamızı nümunəvi ölkə adlandırır. Bu da, əlbəttə ki, cənab İlham Əliyevin humanist siyasətinə verilən böyük qiymətdir və bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti pandemiya dövründə də ilk növbədə xalqın sosial təminatı ilə bağlı dünya ölkələrinin çox azında rast gəlinən kompleks tədbirlər həyata keçirir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Ermənistan silahlı qüvvələri snayper tüfənglərindən də istifadə etməklə atəşkəsi 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.




*Əvvəli 1-ci səh.*

Mütərəqqi dünyanın təfəkkür tərzi ilə uzlaşan dünyəvi və hüquqi dövlət modeli qurmaq şansımız isə çox sonralar - yalnız XX əsrin əvvəllərində yarandı. Proses həm də qansız-qadasız, ziyalı fəhmi ilə məntiqi sonluğa yetişdi: əsrin əvvəllərində dövrünün görkəmli ədəbi simalarından olan Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Əli bəy Hüseynzadə, Firudin bəy Köçərli, Məmməd Səid Ordubadi və digərləri azadlıq və müstəqillik ideyalarını öz əsərlərində təbliğ edərək ictimai şüurda möhkəmlənməsinə təkan verdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gedən yolda bu dəfə sərkərdə əzm-qətiyyəti, qılınc-qalxan deyil, zəka, məslək və əqidə birliyindən qaynaqlanan müstəqillik ideyası sözünü dedi. Zamanı düzgün dəyərləndirən müdrik irfan sahibləri Zaqafqaziya Seyminin dağılması ilə milli müstəqillik məqamının yetişdiyini də düzgün dəyərləndirdilər.

## Müsəlman Şərqinin parlayan ulduzu

Nəhayət, milli qürur tariximizə çevrilmiş o unudulmaz gündə - 1918-ci il mayın 28-də Zaqafqaziya Seyminin müsəlman təmsilçiləri milli istiqlaliyyəti elan etmək, milli hökuməti yaratmaq üçün Tiflisdə toplandılar. Uzun və gərgin müzakirələrdən sonra Milli Şura ruh yüksəkliyi və sevinc göz yaşları ilə "Azərbaycanın istiqlaliyyəti haqqında bəyannamə"ni qəbul etdi. 30 may 1918-ci il tarixdə Azərbaycanın müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə məlumat verildi.

Müsəlman Şərqində ilk demokratik, hüquqi və dünyəvi dövlətin məhz Azərbaycanda yaradılmasını bu gün böyük qürur və fəxarət hissi ilə deyirik. "İstiqlal Bəyannaməsi"ndə müstəqil dövlətin yaranış və quruluş forması ilə yanaşı, ərazi hüdudları da dəqiq müəyyənləşdirilmişdi. Hakimiyyətin xalqa məxsusluğu, vətəndaşların siyasi, sosial və iqtisadi hüquqlarının təmini, hər kəsin milli, dini, sinfi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün əlverişli şəraitin yaradılması, ən nəhayət, hakimiyyət bölgüsü prinsipləri demokratik, hüquqi və dünyəvi dövlət modelinin əyani təzahürləri idi.

Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə nələrə nail olmadı ki?! İlk Avropa tipli universitet yaradıldı, qadınlara seçki hüququ verildi, Azərbaycan dili dövlət dili elan edildi, üçrəngli milli bayrağımız, gerb və himnimiz qəbul edildi. Milli pul dövriyyəyə buraxıldı, ordu, parlament, təhlükəsizlik strukturları formalaşdırıldı. Qonşu dövlətlərlə sivil diplomatik münasibətlər yaradıldı, vətəndaş rifahına xidmət edən sosial-iqtisadi islahatlar aparıldı.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 16 may 2017-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamında deyildiyi kimi: "Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi".

Əlbəttə, əksər hallarda müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətin olur. Təəssüf ki, ötən əsrin əvvəllərində cərəyan edən hadisələr fonunda bu acı taleyi yaşamalı olduq. Tarix səhnəsinə gəlib-getmiş bir çox dövlətlər kimi, cümhuriyyət də məhz xarici müdaxilənin qurbanı oldu və mövcudluğu 23 ay çəkdi. Bununla belə, cümhuriyyət dövrü Azərbaycanın ötən əsrin sonlarına doğru dövlət müstəqilliyinin bərpasına nail olmasında həlledici istinad mərhələsi kimi tarixiləşdi və yaddaşlarda silinməz izlər buraxdı.

## Müstəqilliyə etibarlı təməl

Xalqın dəyəri onun nəyə can atmasındadır. Azərbaycan xalqı da hər zaman milli ruh və özünəməxsusluğunu qorumağa çalışıb, bu amal uğrunda mücadilə aparıb. Ötən əsrin 30-40-cı illərində milli ruh və düşüncənin daşıyıcısı, milli təfəkkür sahibi olan aydınlarımıza qarşı törədilən qanlı terror və amansız repressiya dalğası belə xalqımızı milli məslək və iradəsindən uzaqlaşdıra bilmədi.

Bəli, Azərbaycanın tarixi şəxsiyyətlərinin, sərkərdələrinin həyata keçməyən, nisgilə çevrilən müstəqil dövlət arzusu ötən əsrin 70-80-ci illərindən başlayaraq məhz Ümummilli Lider Heydər Əliyevin gizli və bəzən də aşkar mübarizəsi ilə gerçəkliyə çevrildi. Böyük öndər, ilk növbədə, milli-mənəvi ruhu gücləndirməklə xalqı tarixi ənənə və köklərinə qovuşdurmağa nail oldu. Müxtəlif tədbirlərdə Azərbaycan dilində səlis çıxış etməklə ana dilinə hörmət və məhəbbətin vacibliyi ilə bağlı cəmiyyətə açıq mesajlar verdi. Milliləşmə zəruriliyini, ana dilinə, dinə, milli dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağın vacibliyini ictimai fikrə müdrikliklə təlqin etdi.

Həmin illərdə Heydər Əliyevin siyasi iradəsilə reallaşdırılan kompleks tədbirlər Azərbaycanda milli özünüdərk hissini gücləndirdi. Müstəqil düşüncə və dövlətçilik təfəkkürünün inkişafına zəmin yarandı. O dövr üçün kifayət qədər riskli və prinsipial görünən addımları ilə Heydər Əliyev Azərbaycan ictimai təfəkkürünü xof və qorxudan da azad etdi. Onun ciddi səyləri ilə 1937-ci ildə repressiyaya məruz qalaraq Sibirə sürgün olunmuş görkəmli dramaturq Hüseyn Cavidin nəşi gətirilərək Naxçıvanda torpağa tapşırıldı.

Müstəqillik təminatdan başlayır. Bu reallığı düzgün dəyərləndirən Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə ötən əsrin 70-80-ci illərində inşa edilmiş yüzlərlə fabrik və zavodlar, iri sənaye müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları mahiyyət etibarilə milli müstəqilliyin gələcək iqtisadi, mənəvi və ideoloji zəmininə çevrilmiş oldu.

Bu sadə həqiqətlər fonunda Heydər Əliyevin müstəqillik tariximizdəki yeri və rolunun tamam fərqli olması da mübaliğəsiz reallıqdır. Bəli, Heydər Əliyev məhz dayanıqlı, qüdrətli, müstəqil Azərbaycan dövlətinin banisidir. Böyük strateqin hələ sağlığında söylədiyi "Azərbaycanın müstəqilliyi daimidir, sarsılmazdır, dönməzdir" fikri onun çağdaş tariximizdə layiqli yerini müəyyən edir.

## İstiqlal yolunun fatehi

Alman mütəfəkkiri Yohan Volfqanq Getenin sözüdür: "Malını itirən bir şey, qürurunu itirən bir çox şey itirib. Cəsarətini itirən isə hər şeyini itirib". Bəzən mövcudluğu sual altında olan hər bir xalq qətiyyətli və müdrik siyasi liderinin rəhbərliyi ilə zəruri olan cəsarəti nümayiş etdirir. Milli iradəsini ortaya qoyaraq azadlıq və istiqlala gedən yolda bütün məhrumiyyətlərə sinə gərir. Əsl lider ətrafda baş verən hadisə və proseslərə münasibətdə passiv müşahidəçi mövqeyindən çıxış etmir, biganəlik və laqeydlik göstərmir.

Xalqımız ötən əsrin 80-ci illərinin sonunda müstəqilliyin bərpası yolunda cəsarət nümayiş etdirərək od-alovlardan keçdi, qurbanlar verməli oldu. Nəhayət, məşəqqət və faciələrdən sonra 1991-ci ilin 18 oktyabrında cümhuriyyətin varisi olaraq Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası bütün dünyaya bəyan edildi. Lakin ilk illərdə hakimiyyətdə olan siyasi qüvvələrin naşı və yarıtmaz fəaliyyəti müstəqillik ideyasının praktik olaraq gerçəkləşməsinə və ictimai etimad qazanmasına imkan vermədi. Xüsusən də AXC-Müsavat cütlüyünün apardığı siyasət 1993-cü ilin əvvəlində Azərbaycanı böyük uçurumla üzləşdirdi. Vətəndaş müharibəsinin qığılcımları artıq alova çevrilirdi. Nəhayət, 1993-cü ilin iyun ayında Azərbaycanda dövlət idarəolunmaz vəziyyətə gəlib çıxdı. Respublikanın olum və ya ölüm dilemması qarşısında qaldığı bir şəraitdə çıxılmaz vəziyyətdə olan ovaxtkı başçıları Heydər Əliyevə üz tutdular.

Beləliklə, Azərbaycan xalqı öz taleyini təcrübəli, vətənini və xalqını sevən, onun arzu və istəkləri ilə yaşayan bir liderə - Heydər Əliyevə etibar etdi. İyunun 15-i tariximizə Milli Qurtuluş Günü kimi yazıldı. 1993-cü il oktyabrın 10-da keçirilmiş prezident seçkilərində Ulu Öndərin ölkə seçicilərinin 95 faizindən çoxunun səsini qazanaraq inamlı qələbə qazanması çarəsizlik və bədbinlik içində yaşayan insanların daxilində işıqlı sabaha, təminatlı gələcəyə inam hissinin parıltısı, cücərtisi idi.

Ümummilli Lider qısa zamanda hakimiyyət boşluğunu aradan qaldırdı. İctimai-siyasi sabitliyin, qanunçuluğun gücləndirilməsi istiqamətində real addımlar atdı. 1993-cü ilin iyul-avqust aylarında xalqımızın böyük dəstəyi ilə bu hadisələrin qarşısını alan, bütün qanunsuz silahlı birləşmələri tez bir zamanda aradan qaldıran Ulu Öndər, eyni zamanda, cəmiyyətdə milli həmrəyliyin, sabitliyin möhkəmləndirilməsinə nail oldu. İqtisadi tənəzzülün qarşısının alınmasına yönəlmiş ardıcıl və sistemli tədbirlər həyata keçirdi.

Qısa müddətdə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda atılan addımlar, milli dövlətçilik ənənələrinə, beynəlxalq standartlara əsaslanan köklü hüquq islahatları insan hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb oldu. Ümummilli Lider müstəqil Azərbaycan üçün möhkəm siyasi və iqtisadi təməl yaratmaqla yanaşı, mütərəqqi parlamentarizm ənənələrinin də əsasını qoydu. Özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirdi.

Siyasi və hüquqi müstəvidə də bir sıra mühüm nailiyyətlərə imza atıldı. 1994-cü ildə atəşkəsin elan olunması Azərbaycana nizami ordu quruculuğu yönümündə islahatlar aparmağa imkan verdi. Aparılan uzaqgörən xarici siyasət sayəsində Azərbaycanın dünyanın bir sıra aparıcı dövlətləri, o cümlədən qonşu ölkələrlə münasibətləri sahmana salındı.

Ümummilli Lider milli-mənəvi və tarixi irsə də daim böyük hörmətlə yanaşırdı. Ulu Öndərin 30 yanvar 1998-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Sərəncamı ilə xüsusi komissiya yaradıldı, cümhuriyyətin yaranmasının 80 illiyi respublikamızda və onun hüdudlarından kənarda böyük təntənə ilə qeyd olundu.

Bəzən taleyin bizə nə qədər mühüm tarixi mərhələnin canlı şahidi olmaq fürsəti verdiyinin fərqində olmuruq. Şübhəsiz, bu günlərin müasiri olmaq, Azərbaycanın inkişaf mərhələlərinin iştirakçısına çevrilmək, tarixi nailiyyətlərinə görə qürur və fəxarət hissi keçirmək taleyin bizə xoş bir ərməğanıdır. Dövlətçilik nailiyyətlərimizin qürurunu yaşayarkən bütün bunların möhkəm təməlini qoymuş Ulu Öndər, dünya miqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin xatirəsini sevgi və ehtiram hissi ilə yad edir, dahi dövlət adamının əzəmətini bir daha anlamış oluruq. Şübhəsiz ki, bu nailiyyətlərin heç biri başlanğıc deyil. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, bunlar Heydər Əliyevin təşəbbüsü, xeyir-duası ilə başlanmış inkişaf proseslərinin növbəti mərhələsi, davamıdır.

## Müstəqil siyasətin bəhrələri

Əsl siyasi davamçı təkcə formalaşmış ənənələri yaşadan deyil, həm də onu zənginləşdirərək öz strateji baxışını ortaya qoyan, xalqının mənafeyinə uyğun siyasət yürüdən parlaq şəxsiyyətdir. Bu prizmadan cənab İlham Əliyevin son 17 ildə Ulu Öndərin siyasi kursunu yeni dövrün tələblərinə uyğun zənginləşdirən və Azərbaycanın müstəqilliyini inamla təmin edən lider olduğu qabarıq görünür.

Tarixi, hüquqi və mənəvi təməli 1918-ci ilin 28 mayında qoyulmuş Azərbaycan Respublikası İlham Əliyevin qətiyyətli liderliyi ilə bu gün tam müstəqil siyasət yürüdür, öz taleyinə sahib çıxması ilə regionda seçilir. Azərbaycan Prezidenti İlham Əliyevin cümhuriyyətin yaranmasının 100-cü ildönümünə həsr olunmuş tədbirdə dediyi bu dəyərli fikirlər heç zaman unudulmayacaq: "Əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər".

Ötən 27 ildə bir çox ölkələrin yüzilliklər boyu nail olduğu sürətli inkişaf yolu keçmişik. Azərbaycanın uğurlarını bu gün ən müxtəlif prizmalardan dəyərləndirmək olar. Lakin bu sırada ölkəmizin milli maraq və mənafeyini qətiyyətlə təmin edən, müstəqil siyasət yürüdən ölkə kimi tanınmasını xüsusi vurğulamaq lazımdır. Ölkə Prezidenti son 17 illik rəhbərlik fəaliyyəti ilə Azərbaycanın müstəqilliyi arzusunda olan bütün dühaların arzu və istəklərini tam həyata keçirib. Respublikamız regionda və beynəlxalq arenada cərəyan edən proseslərə milli maraq və mənafeyindən çıxış edərək reaksiya verib. Dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları bu gün Azərbaycanın mövqeyini nəzərə alırlar.

Ermənistandan fərqli olaraq Azərbaycanın regionda öz siyasi dəst-xətti, müstəqil inkişaf yolu mövcuddur. Bu isə bir sıra dairələri, ilk növbədə, təcavüzkar ölkənin rəhbərliyini ciddi narahat edir. İkinci Dünya müharibəsi dövründə babasının alman faşistləri ilə xəyanətkar əməkdaşlığı üzə çıxan Ermənistanın baş naziri Paşinyanın Azərbaycan Xalq Cümhuriyyətinin əsas banilərindən olan Məhəmməd Əmin Rəsulzadəni saxta ittihamlarla eyni məsələdə günahlandırması təcavüzkar ölkənin siyasi, iqtisadi və ideoloji cəbhələrdə Azərbaycanla rəqabətə davam gətirmədiyinin bariz təcəssümüdür.

Obyektiv səbəblərdən ötən dövrdə Azərbaycanın həllinə nail olmadığı bir problem var: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Dövlət başçısı İlham Əliyev münaqişənin həlli, torpaqlarımızın işğaldan azad edilməsi üçün lazımi məqamda qətiyyətli addımların atılacağını heç zaman istisna etməyib.

Bu gün milli müstəqilliyi praktik surətdə gerçəkləşdirməyə nail olmuş ölkə rəhbərliyi iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, səmərəli diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti ilə seçilir. Xarici və daxili siyasətdə milli maraqların gerçəkləşdirilməsi amalı daim öndə dayanır.

Azərbaycan cəmiyyəti yüksək demokratik inkişafa hər hansı dağıdıcı inqilabla deyil, məhz təkamül yolu ilə nail olmağın zəruriliyini dərk edir. Xalq məhz bugünkü Prezident İlham Əliyevin uğurlu və səmərəli fəaliyyətinin bəhrəsi olan iqtisadi, elmi, mədəni inqilabı dəstəkləyir. Son illərdə ölkədə baş verən möhtəşəm, inqilabi yeniliklər, modernləşmə prosesləri ölkəsini, xalqını sevən hər bir vətəndaş tərəfindən razılıqla qarşılanır.

Şübhəsiz ki, Azərbaycanın ən müxtəlif sahələrdə müstəqil siyasət yürütməsini təmin edən başlıca amillərdən biri son illərdə əldə olunmuş böyük iqtisadi nailiyyətlərdir. Son vaxtlar neftin qiyməti 4 dəfəyədək aşağı düşsə də, respublikamız iqtisadi müvazinətini əzmlə qoruyur, böhranın mənfi təsirlərini azaltmaq üçün səmərəli iqtisadi və inzibati-qanunverici islahatlar aparır.

Əminliklə deyə bilərik ki, 2018-ci ilin 11 aprel seçkilərindən sonra Azərbaycanın inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə həyata keçirilən sosialyönümlü islahatlar dövlətimizin başçısının inqilabi islahatların təşəbbüskarı və icraçısı olduğunu bir daha sübut edir. Ərazi bütövlüyümüz uğrunda həlak olmuş qəhrəman insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödənişin edilməsi, zəlzələdən ciddi zərər çəkmiş vətəndaşlar üçün yeni evlərin tikintisi, minimum əməkhaqqının 2 dəfə artırılaraq 250 manat müəyyən edilməsi, devalvasiya nəticəsində banklara borcu yaranmış vətəndaşların borclarının müəyyən şərtlər civarında silinməsi, yanğından zərər çəkmiş sahibkarlara kompensasiyanın ödənilməsi və digər sosialyönümlü addımlar Azərbaycanda insan amilinin uca tutulduğunu bir daha təsdiqləyir.

Bütün dünya ölkələrini çıxılmaz vəziyyətə salmış koronavirusla mübarizədə Azərbaycan Prezidenti cənab İlham Əliyevin ilk gündən nümayiş etdirdiyi uğurlu strategiya da hazırda mütərəqqi model kimi qəbul olunur. Xalqın mənafeyi nəzərə alınmaqla vaxtında atılmış qabaqlayıcı addımlar Azərbaycanın pandemiya ilə mübarizədə qısa müddətdə uğurlu nəticələr əldə etməsinə imkan yaratdı. Sosial təcrid tədbirlərinin vətəndaşların və iş adamlarının mənafeyinə toxunmaması istiqamətində atılan addımlar, ciddi sosial paketin qəbulu və qısa zamanda həyata keçirilməsi respublikamızın iqtisadi qüdrətini və insan amilinə verdiyi dəyəri bir daha üzə çıxardı.

Bu gün qürur hissi ilə onu da demək olar ki, pandemiya ilə bağlı iqtisadiyyatının tənəzzül keçirməsi səbəbindən Beynəlxalq Valyuta Fonduna kömək üçün müraciət etmiş 150-dək ölkə arasında Azərbaycanın adı yoxdur. Əksinə, respublikamız ilk gündən yüksək humanizm nümayiş etdirərək pandemiyadan sarsılmış bir sıra dövlətlərə və beynəlxalq təşkilatlara maliyyə dəstəyi göstərib.

"Müstəqillik, güclü dövlət, sabitlik və sosial rifah" tezisi bu gün Azərbaycanda aparılan çoxşaxəli islahatların qayəsini təşkil edir. Bu məqsədlər naminə dərin iqtisadi islahatlar aparılır, cəmiyyətdə korrupsiya və digər neqativ hallara qarşı mübarizə tədbirləri gücləndirilir. Yeni dövrün tələblərinə cavab verməyən, eyni zamanda dövlət başçısının xəbərdarlıqlarından nəticə çıxarmayan məmurlar barəsində sərt ölçülərin götürülməsi vətəndaşlarda köklü islahatların səmərəli nəticələrinə inamı daha da artırır.

Bütün bunlarla yanaşı, dövlətimizin başçısı milli-mənəvi dəyərlərin və tarixi irsin böyük himayədarı olduğunu dəfələrlə sübut edib. Xatırladaq ki, Prezident İlham Əliyevin 16 may 2017-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamı əsasında cümhuriyyətin yaranmasının 100-cü ildönümü respublikamızda geniş qeyd olunub. Eyni zamanda, dövlətimizin başçısının 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi cümhuriyyət banilərinə göstərilən yüksək ehtiram və hörmətin bariz təcəssümü olub.

*Bu gün Azərbaycan xalqı həm də onunla qürur duyur ki, dövlətçiliyimiz mövcudluq tarixinin heç bir dönəmində bu qədər güclü olmayıb. Azərbaycan insanı tarixin heç bir mərhələsində özünü bu qədər təminatlı, güvənli, təhlükəsiz, azad hesab etməyib. Bəli, bütün bunlar real liderlik və həqiqi müstəqilliyin xalqımıza, dövlətimizə bəxş etdiyi əvəzsiz töhfələrdir. Qarşıda isə bizi hələ çox uğurlar gözləyir.*

**Bəxtiyar ƏZİZLİ,**
***"Azərbaycan"***

# "Gördüyünüz işlər xalqımız tərəfindən böyük qürur hissi ilə qarşılanır"

*Əvvəli 1-ci səh.*

Sizin qayğınıza cavab olaraq dərslərimizi yaxşı oxuyacağımıza, Vətənə layiq övlad kimi böyüyəcəyimizə söz veririk. Allah Sizi, ailənizi və xalqımızı qorusun!"

Kəlbəcər rayonundan məcburi köçkün **Elmir Cəfərov:** "Hörmətli cənab Prezident, Sizin sayənizdə Azərbaycan koronavirus pandemiyasına qarşı vaxtında ciddi tədbirlər gördü. Rəhbərliyinizlə bütün səylər birləşdirilərək məqsədyönlü, düşünülmüş fəaliyyət strategiyası quruldu və pandemiyaya qarşı mübarizədə uğur qazanıldı. Pandemiya vaxtında Azərbaycan xalqına göstərdiyiniz maddi və mənəvi dəstəyə görə şəxsən öz adımdan və ailəmin adından Sizə təşəkkür edir, hörmət və ehtiramımızı bildiririk. Xalqımız, o cümlədən məcburi köçkünlər hər zaman Sizi dəstəkləyir və uğurlu fəaliyyətinizlə fəxr edirlər. Allah Sizi qorusun!"

Laçın rayonundan məcburi köçkün **Elçin Zeynalov:** "Hörmətli cənab Prezident, Azərbaycan Ulu Öndərimiz Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünya dövlətləri arasında tanındı. Biz fəxr edirik ki, bu gün həmin siyasəti Siz layiqincə davam etdirirsiniz.

Cənab Prezident, dünyamız gözəgörünməz bəla ilə mübarizə aparır. Digər ölkələr bu bəladan ağır itkilər verdiyi halda Siz Azərbaycan xalqını qorudunuz. Xalqımız seçimində yanılmadığı üçün qürur hissi keçirir. Siz öz əməlinizlə, zəhmət və uzaqgörənliyinizlə xalqımızı bu bəladan xilas etdiniz. Özünü güclü sayan dövlətlərin koronavirus epidemiyasının qarşısında aciz qaldığı bir vaxtda Sizin gördüyünüz tədbirlər Azərbaycan xalqını zəfər qələbəsinə yaxınlaşdırır. Bu yorulmaz fəaliyyətə görə Sizə və Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm. Sizin sayənizdə tezliklə bu bəlaya qalib gələrək torpaqlarımızı da azad edəcək, bayrağımızı Qarabağdakı, Laçındakı zirvələrdə ucaldacağıq. Biz buna əminik".

Xəzər rayonunun Binə qəsəbəsindən məktəbli **Nərmin Nəsirova:** "Hörmətli cənab Prezident, biz məktəblilər Sizin "Evdə qal!" çağırışınıza əməl edərək məktəblərə getmədik, dərslərimizə evdə davam etdik, onlayn dərslər keçdik. Evdə qalsaq da, məyus olmadıq. Bilirik ki, Siz bizim sağlam və xoşbəxt böyüməyimiz üçün yorulmadan çalışırsınız. Buna görə də Sizi çox sevirik. Ailə üzvlərimiz də Sizin qərarlarınızı bəyənir və dəstəkləyir. Mən onların adından da Sizə təşəkkür edir, yeni uğurlar arzulayıram".

Xocalı rayonundan məcburi köçkün, Qarabağ əlili **Elmira Bağırovanın** məktubunda deyilir: "Hörmətli cənab Prezident, mən Sizə Xocalı rayonundan olan məcburi köçkünlərin minnətdarlığını çatdırıram. Bu ağır və çətin günlərdə bizə göstərdiyiniz qayğı misilsizdir. Xalqa göstərdiyiniz bu qayğı heç vaxt unudulmayacaq. Bu fədakarlığınız xalqın Sizə olan inamını daha da artırdı. Siz bu qayğılı günlərdə bizim yanımızda oldunuz. Biz də həmişə Sizin yanınızda olacağıq. Sizinlə fəxr edirik".

Xankəndi şəhərindən **Vasif Allahverdiyev:** "Hörmətli cənab Prezident, bütün dünyada və eləcə də ölkəmizdə yaranmış bu gərgin vəziyyətdə hər bir vətəndaşın yanında oldunuz və bizə nə qədər yüksək dəyər verdiyinizi bir daha sübut etdiniz. Bunun üçün Sizə minnətdarlığımı bildirirəm və əminliklə deyirəm ki, verdiyiniz ağıllı qərarlar sayəsində hamımızı bu çətin vəziyyətdən xilas edəcəksiniz. Biz qarabağlılar torpaqlarımızın düşmən işğalından azad olunacağı günü də səbirsizliklə gözləyirik və Sizə inanırıq. Allah Sizə cansağlığı versin!"

Gəncə şəhərindən **Aydın Murovdağlı** yazır: "Möhtərəm cənab Prezident, bəşəriyyətin XXI yüzilliyin birinci yarısında düçar olduğu, heç bir müasir texnologiya və silahla susdurulması mümkün olmayan, inkişaf etmiş, supergücə malik dövlətlər tərəfindən belə ram edilə bilməyən, böyük insanlığı naçar vəziyyətdə qoyan, yeni əsrin yeni bəlası adlandırılan koronavirusun hökm sürdüyü çox ağır bir məqamda bir ölkə vətəndaşı, ziyalısı olaraq xalqının taleyini hər şeydən üstün tutan, hamının sevimlisi olan, uzaqgörən, xeyli dərəcədə tədbirli dövlət başçısına üz tuturam. Siz bütün dəyərlərə yiyələnən, humanizmi, mərhəmət hissini, ədalət prinsipini, böyük insan amilini öz şəxsiyyətində cəmləşdirən, intellektual düşüncəyə önəm verən, mükəmməl qətiyyətə və iradəyə malik lidersiniz. Yaşadığımız bu günlərdə qabaqlayıcı tədbirləriniz, tapşırıqlarınız, son dərəcə mütərəqqi ideyalarınızla bunu bir daha sübut etdiniz. Siz böyük cəsarətlə, inam hissinin gücü ilə nümayiş etdirdiniz ki, insan kapitalı Azərbaycan xalqının timsalında Sizin üçün çox önəmlidir. Məhz Sizin azad, demokratik və müstəqil dövlətimizə ideal rəhbərliyiniz sayəsində dünyanı ağuşuna alan, ölkəmizdən də yan keçməyən, vurğuladığınız kimi, gözəgörünməz düşmən olan koronavirus Azərbaycanda kütləviləşə bilmədi. Xalqla dövlətin monolit, fundamental birliyini inamla ortaya qoydunuz. Ona görə də Siz ən böyük mükafata, ən sürəkli alqışlara, ən isti təşəkkürlərə layiqsiniz. Dünyada xalqın sevgisindən, məhəbbətindən böyük mükafat yoxdur. Siz bu yüksək mükafata dönə-dönə layiq görülmüsünüz. Azərbaycan xalqının bir sıravi vətəndaşı olaraq mən də öz növbəmdə Sizə təşəkkürlərimi yetirirəm. Fəxr edirəm ki, azərbaycanlıyam, fəxr edirəm ki, Sizin kimi Prezidentim var. Ulu Tanrı Sizi qorusun! Yaşasın müstəqil Azərbaycan, yaşasın Prezident İlham Əliyev!"

Qəbələ rayonundan **İvan Şabanov** və **Elnarə Şərifova** yazırlar: "Möhtərəm cənab Prezident, dünyanı bürüyən koronavirus pandemiyası ilə bağlı gördüyünüz işlər və xüsusi karantin rejiminin tətbiqi bu xəstəliyin Azərbaycanda geniş yayılmasının qarşısını aldı. Qabaqlayıcı tədbirlərə, həmçinin işləməyən şəxslərə 190 manat birdəfəlik ödənişin verilməsinə, aztəminatlı ailələrə isə ərzaq yardımının göstərilməsinə görə rayonumuzun sakinləri adından Sizə minnətdarıq. Biz Sizinlə fəxr edirik. Allahdan Sizə cansağlığı diləyirik. Əminik ki, Sizin sayənizdə Qarabağımız da tezliklə işğaldan azad olunacaq".

Şəmkir rayonunun sakini Mehdi Həsənov: "Hörmətli cənab Prezident, internet saytlarından, mətbuatdan görürük ki, respublikanın müxtəlif bölgələrindən Sizə ünvanlanan təşəkkür məktublarının sayı-hesabı yoxdur. Xalqımızın koronavirus pandemiyası ilə mübarizədə az itki verməsi, kütləvi yoluxmanın müşahidə edilməməsi Sizin gərgin əməyinizin nəticəsidir. Respublikamızın başı üzərini qara bulud kimi alan pandemiya inanırıq ki, tezliklə tam aradan qaldırılacaq.

Əziz Prezidentimiz, şəmkirlilərin Sizə və Mehriban xanım Əliyevaya olan hörmət və rəğbəti sonsuzdur. Allah Sizlərə uzun ömür, cansağlığı versin!"

# Ramazan bayramı gəlir

İslam dünyası əziz bayramı - Ramazan bayramı ərəfəsindədir. Hicri-qəməri təqvimlə şəvval ayının 1-də başlayan və bir neçə gün davam edən bu bayram mübarək orucluq ayının qurtarması ilə əlamətdardır. Ramazan bayramı Allah-təalanın mömin bəndələrinə bir ay boyunca tutduqları oruc müqabilində verdiyi mükafatdır. Təsadüfi deyil ki, bu bayrama ərəbcə "İd əl-fitr" ("İftar bayramı") deyilir. Yəni bayram günündə müsəlman Ramazan ayında oruc ibadətini başa çatdırdıqdan sonra iftarını açıb normal həyata qayıdır.



Ramazan bayramında oruc tutmaq haramdır. Müsəlmanlar bayram günü yuyunub təmizlənir, təzə və ya təmiz paltar geyirlər. Hamı bir-birini bayram münasibətilə təbrik edir, bir-biri üçün Allaha dua edir. Hədisi-şərifə görə, bayram gecəsi və bayram günü Allaha edilən dualar qəbul olunandır.

Hər bir müsəlman üçün bir ay oruc tutmaq fərz olduğu kimi, Ramazan bayramında fitrə zəkatı vermək də vacibdir. Hədisi-şərifdə deyilir ki, Allah bəndəsindən tələb olunan fitrə verilməyənədək Ramazan ayında tutulmuş oruc yerlə göy arasında asılı qalır.

Müsəlman fitrəni nemətlər bəxş edən Allaha şükür etmək, bayram günü kasıbları sevindirmək, oruc vaxtı buraxdığı səhvlərdən təmizlənmək üçün verir. Fitrəni yalnız imkanlı şəxslər çıxarmalıdırlar. Ailə sahibi ailənin hər bir üzvünün adından fitrə verməlidir.

Vaxtilə fitrə buğda, arpa, xurma, düyü, kişmiş və s. ərzaq məhsullarından adambaşına təxminən 3 kiloqram həcmində ödənilirdi. Zaman keçdikcə, kasıblara və ehtiyacı olanlara münasibətdə göstərilən bu xeyirxahlıq başqa formalar da almışdır. İndi fitrəni pul şəklində də verirlər. Əslində bu, daha münasibdir. Belə ki, fitrəni pul kimi qəbul edən şəxs onu öz ehtiyaclarına uyğun şəkildə xərcləmək imkanı əldə edir. Özü də fitrə yalnız halal maldan verilməlidir.

Fitrə bayram namazı başlamazdan qabaq çıxarılmalıdır. Əks təqdirdə bu, fitrə hesab olunmur, adi sədəqə sayılır. Çıxarılan fitrə ilk növbədə ehtiyacı olan qohumlara, qonşulara, tanışlara, eləcə də digər insanlara verilir. Fitrə bir kasıbın azı birgünlük qida ehtiyacını ödəməlidir. İmkanlı müsəlmanlar daha çox fitrə çıxarıb savab qazanırlar. Özü də bir şəxsin fitrəsi bir kasıba da verilə, bir neçə kasıb arasında da bölünə bilər.

Ramazan bayramının fəzilətləri təkcə fitrə çıxarmaqla məhdudlaşmır. Bayram günlərində müsəlman ailələrində şənlik əhvali-ruhiyyəsi hökm sürür. Uşaqlara hədiyyə verilir, qonşular, dostlar bir-birinə qonaq gedir, bayram sovqatı aparırlar. İnciklikləR aradan qalxır, küsülülər barışırlar.

Ramazan bayramı həm də müsəlmanların həmrəyliyini, birliyini, onların arasında qarşılıqlı anlaşmanı möhkəmlətmək üçün fürsətdir. Bayramın davam etdiyi günlərdə insanlar bir-birinə qəlbən daha yaxın olur, bayram sevincini bölüşürlər.

Bütün müsəlman dünyasında olduğu kimi, ölkəmizdə də Ramazan bayramı yüksək səviyyədə qeyd edilir. İnsanları şənlik, fərəh duyğuları bürüyür. Milli müstəqilliyin bərpasından sonra ölkəmizdə dövlət-din münasibətləri nizama salınmış, etiqad azadlığı təmin edilmişdir. Mənfur sovet rejiminin möminlərə dözümsüz münasibətini, cəmiyyətə aşıladığı mənəviyyatsızlığı müasir tələblərə cavab verən dövlət siyasəti əvəz etmişdir. Bu siyasətin əsas istiqamətlərindən biri yeni məscidlərin inşası, mövcud məscidlərin təmir və bərpa olunub möminlərin ixtiyarına verilməsidir.

Digər tərəfdən, islam dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsi dövlət siyasətinin üstün istiqamətlərindəndir. Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, ICESCO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü olaraq müsəlman aləmi ilə qarşılıqlı faydalı əlaqələr yaratmış, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı olmuşdur. Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfə vermişdir. Dövlətimizin müsəlman dünyasında qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapmışdır. 2017-ci ildə möhtəşəm idman tədbirinin - IV İslam Həmrəyliyi Oyunlarının Bakı şəhərində keçirilməsi isə ölkəmizin islam həmrəyliyinin möhkəmləndirilməsi naminə növbəti əməli addımlar atması üçün əlverişli şərait yaratmışdır.

Ramazan bayramı qeyd olunarkən şəriət qaydaları hər bir müsəlman xalqının milli adət-ənənələri ilə çulğalaşır. Bu, ölkəmizdə də belədir. Bayram ərəfəsində müsəlman vətəndaşlarımız qəbiristanlıqları ziyarət edib dünyadan köçmüş əzizlərini anır, torpaqlarımızın müdafiəsinə qalxıb şəhid olmuş vətən övladlarını yad edir, onların ruhuna Quran ayələri oxutdururlar.

Ramazan ayında tutduğunuz oruc, etdiyiniz dualar qəbul olunsun! Bayramınız mübarək olsun! Allah çıxardığınız fitrənin əvəzini versin!

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Alıcılar da, satıcılar da bu qaydaları bilməlidirlər!

## Qida məhsullarının ticarəti ilə məşğul olan müəssisələr koronavirus infeksiyasının profilaktikasına dair metodiki göstərişlərə əməl etməlidirlər

**Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən Ramazan bayramı münasibətilə mayın 23 və 24-də paytaxtın 3 fərqli nöqtəsində (Nərimanov, Yasamal və Binəqədi rayonlarında) "Kənddən şəhərə" Ramazan yarmarkası təşkil olunacaq.**

Yarmarkanın təşkilində əsas məqsəd bayramla əlaqədar paytaxt sakinlərinin kənd təsərrüfatı məhsullarına artan tələbatını yerli və təbii məhsullarla ödəmək, kiçik və orta fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaqdır.

Ramazan yarmarkasının Nazirlər Kabineti yanında Operativ Qərargahın təsdiqlədiyi karantin normalarına əməl edilməklə təşkil olunacağı qeyd edilir. Bəs bu normalar hansılardır?

Məlumdur ki, xüsusi karantin rejimi dövründə insanların ərzağa olan ehtiyacını təmin etmək üçün fasiləsiz şəkildə çalışan sahələrdən biri də qida məhsullarının ticarəti ilə məşğul olan müəssisələrdir. Pandemiya dövründə bu müəssisələr Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun çalışmalıdırlar.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) "Qida məhsullarının ticarəti ilə məşğul olan müəssisələrdə (topdan və pərakəndə satış obyektləri, bazar, yarmarka və s.) koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər" hazırlayıb.

Metodiki göstərişlərə əsasən, ərzaq satışı ilə məşğul olan müəssisələrdə insanların ən sıx toplaşdığı yerlərin kassaların qarşısı olduğu nəzərə alınaraq, koronavirus xəstəliyi ilə bağlı vəziyyət normallaşana qədər müəssisənin fəaliyyətdə olduğu saatlarda mövcud olan hər bir kassa fəaliyyət göstərməli, həmçinin kassaların qarşısında növbədə duran insanlar bir-birilərindən 2 metrlik məsafədə dayanmalıdırlar. Bu müəssisələrdə çalışan işçilər gün ərzində bir çox insanla yaxın təmasda olduqlarından birdəfəlik istifadə edilən maska, əlcək (fərqli ərzaq məhsulu ilə təmasdan və ya hər hansı bir səbəbdən çirkləndikdə dəyişilməlidir) və dezinfeksiya məhlulundan istifadə etməlidirlər. Açıq şəkildə satılan çörək-bulka, unlu-qənnadı məmulatları, quru meyvələr və istehlakdan öncə heç bir termiki emal və yaxud təmizləmə prosesinə məruz qalmayan digər qablaşdırılmamış qida məhsulları xüsusi vitrin arxasında saxlanaraq istehlakçılardan təcrid edilməli və yalnız xüsusi gigiyenik vasitələrlə (əlcək, maska, başlıq və s.) təmin edilmiş işçi heyət üzvləri tərəfindən istehlakçılara təqdim olunmalıdır.

Müəssisədə sanitar qovşaqları, soyunub-geyinmə otaqları, mexaniki və təbii havalandırma, işıqlandırma, su-kanalizasiya sistemləri, təmizlik və dezinfeksiya üçün istifadə olunan vasitələrin mühafizəsi, işçi heyətin şəxsi gigiyenası ilə bağlı ümumi qaydalara əməl olunması vacibdir. Zallar və otaqlar mütəmadi havalandırılmalı, soyuducuların temperatur rejiminə mütəmadi nəzarət edilməli, həşərat və gəmiricilərə qarşı mübarizə tədbirləri (dezinfeksiya və deratizasiya) gücləndirilməlidir.

Dezinfeksiyaedicidən istifadə etmək üçün müəssisə qurğularla təmin olunmalıdır. Tullantılar vaxtında kənarlaşdırılmalı, həmçinin tullantı qabları təmiz saxlanılmalıdır. Müəssisədə daxili rabitə qovşağı vasitəsilə müntəzəm olaraq istehlakçılar koronavirus infeksiyasının profilaktikası üzrə metodiki göstərişlər barədə məlumatlandırılmalı, simptomlu şəxslərin müəssisəyə girişi məhdudlaşdırılmalıdır.

### Təmizlik və dezinfeksiya işləri

Ərzaq satışı ilə məşğul olan müəssisələrdə həyata keçirilən təmizlik-dezinfeksiya işləri məhsulların xüsusiyyətləri, təmizlik-dezinfeksiya qaydaları nəzərə alınmaqla və müxtəlif təmizlik vasitələrindən istifadə etməklə aparılır. Təmizlik-dezinfeksiya işləri iş saatı ərzində mütəmadi və əsasən işlək sahələrdə (giriş-çıxış, kassa və s.), iş saatlarından sonra isə bütün sahələrdə həyata keçirilməlidir. Dezinfeksiya işlərinin həyata keçirildiyi sahə bu işlər başa çatdıqdan sonra havalandırılmalıdır. Dezinfeksiyaedici maddələrin istifadə təlimatında qeyd edilən səth üzərində tövsiyə olunan qalma müddətinə ciddi riayət edilməlidir.

Təmizlik-dezinfeksiya işləri həyata keçirilərkən aşağıdakı ardıcıllığa riayət edilməlidir:

*- Mexaniki təmizlik: quru çirklər və tullantılar səthlərdən və məkandan uzaqlaşdırılır;*

*- Təmizləmə: isti su və lazımi hallarda yuyucu vasitələrdən istifadə etməklə həyata keçirilir;*

*- Durulama: istifadə edilmiş yuyucu vasitə qalıqlarının səthdən tamamilə uzaqlaşdırılması məqsədilə isti sudan istifadə edilir;*

*- Dezinfeksiya: istifadəsinə icazə verilən dezinfeksiyaedici maddələr istifadə təlimatına uyğun olaraq tətbiq edilir;*

*- Dezinfeksiyadan sonra durulama: bu mərhələdə içmək üçün yararlı sudan istifadə edilir.*

**QEYD:** Qida ilə təmasda olan səthlərin dezinfeksiyasından sonra su ilə durulanması mütləqdir.

### Dezinfeksiya edilməsi vacib olan sahələr və tövsiyə edilən dezinfeksiya maddələri

*- Giriş-çıxışlardakı ayaqaltılıqlar (xlor tərkibli məhlul və ya digər);*

*- Qapı və qapı tutacaqları (spirt tərkibli məhlul və ya digər);*

*- İstehlakçıların şəxsi əşyalarının saxlanılması üçün nəzərdə tutulan dolablar və onların tutacaqları (spirt tərkibli məhlul və ya digər);*

*- Məhsulların saxlandığı rəflər, stellajlar, daşındığı araba və səbətlər (spirt tərkibli məhlul və ya digər);*

*- Çoxmərtəbəli müəssisələrdəki eskalatorlar və onların tutacaqları, liftlər (spirt tərkibli məhlul və ya digər);*

*- Döşəmələr (xlor tərkibli məhlul və ya digər);*

*- Soyuducuların tutacaqları (spirt tərkibli məhlul və ya digər);*

*- Soyunub-geyinmə otaqları (xlor tərkibli məhlul və ya digər);*

*- Sanitar qovşaqları (xlor tərkibli məhlul və ya digər);*

*- Anbarlar (xlor tərkibli məhlul və ya digər);*

*- Tullantıların yığıldığı sahələr (xlor tərkibli məhlul və ya digər);*

*- Tullantı qabları (spirt tərkibli məhlul və ya digər);*

*- Ödəniş terminalları (spirt tərkibli məhlul və ya digər);*

*- Kassada yerləşən konveyerlər (spirt tərkibli məhlul və ya digər).*

### İşçi heyətinin şəxsi gigiyenası

İşçi heyət dəyişəkli təmiz iş geyimi ilə, həmçinin gün ərzində bir çox insanla təmasda olmaları nəzərə alınaraq maska, əlcək, dezinfeksiyaedici məhlul və lazımi hallarda digər gigiyenik vasitələrlə təmin olunmalıdır. Şəxsi gigiyena qaydalarına riayət edilməli, işə başlamazdan, qida məhsulları ilə təmasdan öncə, çiy qida məhsulunun emalı, qablaşdırılması və satışa hazırlanmasından, tullantılarla təmasdan, təmizlik işlərindən, sanitar qovşağından istifadədən, asqırma və öskürmədən, pulla təmasdan, siqaret çəkdikdən sonra işçilərin əllərini təmiz yumasına və ya dezinfeksiyasına nəzarət edilməlidir. Qida məhsulları ilə təmas edərkən saçları qapalı saxlayan baş örtükləri və əlcəklər taxılmalıdır. Əlcəklər çirkləndikdə və tamlığı pozulduqda, həmçinin iş növbələri arasında dəyişdirilməlidir. İşçi heyətin əllərində istənilən kəsik, açıq, qapalı yaralar mütləq su keçirməyən sarğı ilə örtülməli, bununla bağlı tibb müəssisəsinə dərhal müraciət olunmalıdır.

İşçi işə başlamazdan əvvəl üst paltarı, ayaqqabı, şəxsi əşyalar qarderoba yerləşdirilməlidir. İş və şəxsi geyimləri müxtəlif dolablarda saxlanılmalıdır. İşə başlamazdan əvvəl əllər sabunla təmiz yuyulmalı, təmiz işçi forması geyinilməli, saçlar örtük altına yığılmalı və ya xüsusi tor materialdan hazırlanmış başlıqlardan istifadə edilməlidir. İş zamanı təmiz paltarda olmalı, çirkləndikdə dəyişdirilməlidir. Sanitar qovşağına getdikdə önlük, başlıq çıxarılmalı, əllər sabunla təmiz yuyulduqdan sonra təkrar geyinilməlidir. İşçi formasında məkandan kənara çıxmaq qadağandır.

### İşçi heyətin müayinəsi

İş zamanı özündə COVID-19-a spesifik olan əlamətləri (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) hiss edən işçi dərhal işini dayandırmalı, tibbi maska ilə təmin olunaraq qapalı otaqda izolyasiya edilməlidir. Həmin şəxsə tibbi xidmətin göstərilməsi üçün 103 - TTTY-ə müraciət olunmalıdır. İşə gəlməzdən əvvəl özündə COVID-19-a spesifik olan əlamətləri (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) hiss edən işçi rəhbərinə xəbər verərək evdə izolyasiya olunmalı və tibbi xidmətin təmin olunması məqsədilə 103 - TTTY-ə zəng vurmalıdır. Xəstəlik əlaməti olan işçinin iş yeri dezinfeksiya edilməlidir. Həmin işçidə laborator üsulla COVID-19 təsdiqləndiyi halda onunla sıx təmasda olan əməkdaşlardan test götürülməli və cavabları aşkarlanana qədər onlar evdə izolyasiya olunmalıdır.

### Əl və dırnaqların gigiyenasına dair tövsiyələr

*- Əllərinizi axar su ilə isladın və sabunu əllərinizə sürtün;*

*- Əllərinizi sabunla birlikdə ovuşdurun. Barmaqların və dırnaqların arasını yaxşı sabunlayın;*

*- Sabunlu əllərinizi ən azı 20 saniyə ovuşdurun;*

*- Əllərinizi axar suyun altında mükəmməl durulayın;*

*- Əllərinizi təmiz salfetlərlə qurulayın;*

*- Sabun və ya su istifadəsi mümkün olmadıqda, etanol (spirt) tərkibli dezinfeksiyaedici məhlullardan istifadə edin;*

*- Dırnaqlar qısa saxlanmalı və tez-tez kəsilməlidir. Hər dəfə əllər yuyulmazdan öncə dırnaqların altı sabun və su ilə (və ya dırnaq üçün fırça ilə) təmiz yuyulmalıdır. İstifadədən öncə dırnağa qulluq vasitələri təmizlənməlidir. Dırnaqların dişlənməsi yolverilməzdir. Kutikula qatının zədələnməsi arzuolunmazdır, çünki kutikula infeksiyanın qarşısını almaq üçün baryer rolunu oynayır.*

### Tibbi maskalardan ümumi istifadə qaydaları

Maskalar ağız və burun nahiyəsini səliqəli örtməklə, üz və maska arasındakı boşluqları minimuma endirmək şərtilə taxılmalıdır. İstifadə zamanı maskanın ağızla təmasda olan hissəsinə toxunmaq olmaz. Maska çıxarılan zaman müvafiq texnikaya əməl edilməlidir (maskanın ön hissəsinə toxunmaq olmaz, arxa hissəsindəki ipləri vasitəsilə çıxarılmalıdır). Maskanı çıxardıqdan sonra əllər spirtlə təmizlənməli, yaxud sabun və su ilə təmiz yuyulmalıdır. Maska çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməsi vacibdir. Birdəfəlik maskalardan təkrar istifadə edilməsi qəti qadağandır. Birdəfəlik maskalar istifadə olunduqdan sonra tibbi tullantı kimi ləğv edilməlidir.

TƏBİB-in hazırladığı bu qaydaları satıcılar da, alıcılar da bilməli və riayət etməlidirlər. Bu zaman məsuliyyətli vətəndaş olaraq özümüzü və ətrafdakıları COVID-19 infeksiyasından qoruya bilərik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Azərbaycan koronavirusun səbəb olacağı mümkün faciələrdən sığortalanıb

## Prezident İlham Əliyevin rəhbərliyi altında böhrana qarşı həyata keçirilən sosial-iqtisadi model özünü doğrultdu

Koronavirus pandemiyası (COVID-19) dünyanı alt-üst etməkdə davam edir. Gün keçdikcə, yoluxma və ölüm sayını artırmaqla vahiməsini sürdürür. Statistik rəqəmlərə nəzər saldıqda görürük ki, son sutka ərzində dünyada rekord sayda -106 min yoluxma qeydə alınıb.

Qlobal pandemiya təkcə insanları sağlıqları ilə təhdid etmir, bütün yaşam sahələrinə zərbə vurur, ölkələri maddi sıxıntı ilə üz-üzə qoyur. İndiyə qədər COVID-19 pandemiyası dünyaya 9 trilyon dollar həcmində ziyan vurub.

Nə yazıq ki, bu bəlanın Yer üzündə nə qədər sürəcəyi, ümumiyyətlə, nəfəsinin kəsilib-kəsilməyəcəyi ilə bağlı heç bir dəqiq cavab yoxdur. Xəstəliyə qarşı vaksinin hazırlanması isə yaxın bir ildə gözlənilmir.

Bəli, hazırda dünya böhran içərisindədir və ondan qurtulmaq üçün çırpınır.

### Vətəndaşların sağlamlığı və təhlükəsizliyi qorunur

Azərbaycanda da koronavirusla mübarizə çərçivəsində mühüm addımlar atılır. Zamanında bu virusa qarşı bütün istiqamətlərdə qabaqlayıcı tədbirlərin görülməsi ölkəmizi mümkün faciələrdən sığortaladı. Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında qlobal böhrana qarşı həyata keçirilən sosial-iqtisadi model özünü doğrultdu. Qabaqlayıcı tədbirlər pandemiyanın geniş vüsət almasının qarşısını almağa, onu nəzarətdə saxlamağa imkan verdi. Yoluxmanın qarşısının alınması üçün aparılan testlərin sayı artırıldı. Nazirlər Kabineti yanında Operativ Qərargahın son açıqlamasına əsasən, Azərbaycanda koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar indiyədək 245.609 test aparılıb.

Xəstələrin hamısının xəstəxana şəraitində müalicə olunması, tibb işçilərinin səfərbər olunaraq onların hər birinin həyata qaytarılması üçün gecə-gündüz mübarizə aparması sağalma dinamikasına müsbət təsir göstərən başlıca amillərdən oldu. Bu göstəricilərə görə ölkəmizdə günbəgün yoluxma səviyyəsi və ölüm sayı azaldı.

Digər tərəfdən, dövlət başçısının tapşırıq və tövsiyələrinə əsasən həssas təbəqələrə sosial dəstək verildi, onlara 190 manat birdəfəlik ödənişlər ayrıldı və bu dəstəyin əhatə etdiyi insanların sayı xeyli genişləndirildi.

Dövlətimiz hər zaman olduğu kimi, bu çətin dövrdə də bütün səylərini vətəndaşının sağlamlığı, təhlükəsizliyi və yaşam şərtlərinin yaxşılaşdırılması istiqamətinə yönəltdi. Buna görədir ki, qısa zaman kəsiyində karantin rejiminin yumşaldılmasına nail ola bildik.

Pandemiya dövründə ölkəmizin yaratdığı bu mütərəqqi model Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən bütün dünyaya nümunə göstərildi.

### Qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi

Prezident İlham Əliyev mayın 19-da 3 saylı DOST mərkəzinin açılışında iştirakı zamanı vurğuladı ki, koronavirusla bağlı işlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı və bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar: "Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram. Yəni pandemiyanın ilk günlərindən minlərlə məktub almışam və bütün bu məktublar təşəkkür xarakterli məktublardır. Çünki doğrudan da, qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi. Yenə də hər şey müqayisədə ölçülür. Əhalisinin sayı Azərbaycanla eyni olan inkişaf etmiş ölkələrdə vəziyyət necədir, Azərbaycanda vəziyyət necədir? O ölkələrin bəzilərində bu günə qədər 10 minə yaxın insan vəfat etdi. Azərbaycanda vəfat edənlərin sayı kifayət qədər azdır. Eyni zamanda qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər imkan verdi ki, biz pandemiyanın geniş vüsət almasının qarşısını alaq və buna nail olduq. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu, bizim gördüyümüz işlərə verilən böyük qiymətdir. Mən bilmirəm başqa bir ölkəyə belə bir ad verilib, yoxsa yox. Bu, doğrudan da görülmüş işlərin məntiqi nəticəsidir. Çünki bəri başdan bizim əsas məqsədimiz xalqımızı, vətəndaşlarımızı bu xəstəlikdən qorumaq idi. Bütün digər iqtisadi məsələlər, iqtisadiyyatın tənəzzülə uğraması, iqtisadiyyatda yarana biləcək problemlər arxa plana keçdi. Halbuki biz bu məsələlərlə də ciddi məşğul olmuşuq. Amma birinci məsələ insanların sağlamlığı, ikinci məsələ insanların sosial təminatı idi ki, biz hər ikisini də təşkil etdik".

### Yeni zamanın diktə və şərtləri

Amma təəssüf ki, koronavirus təhlükəsi hələ bitməyib və ölkə daxilində bu xəstəliyi ram etdiyimiz bir ərəfədə qətiyyən arxayınlaşmaq olmaz. Məqsəd bu bəladan birdəfəlik qurtulmaqdır. Dövlətimizin gördüyü effektiv tədbirlər sayəsində qısa zaman ərzində karantin rejiminin yumşaldılmasına nail olduq. Əksər iş yerlərinin fəaliyyəti bərpa olundu, SMS icazə sistemi ləğv olundu, parklar, muzeylər, sərgi salonları açıldı, metro fəaliyyətini davam etdirdi, restoran-kafelər müştərilərə xidmət göstərməyə başladı. Bir sözlə, Azərbaycanda həyat yavaş-yavaş normal məcraya istiqamətləndi. Amma koronavirusun diktə və tələb etdiyi yeni qayda və şərtlərlə. Bu ərəfədə gigiyena qaydalarına, sosial izolyasiyaya əməl etmək, ictimai yerlərdə maska taxmaq həyatımızın ən əhəmiyyətli parçasına çevrilməlidir. Hazırda bu sadalananlara əməl etməyimiz həm özümüzün, həm də ümumilikdə toplumumuzun təhlükəsizliyində vacib rol oynayacaq.

### Virusla birgə necə yaşayaq?

Çox təəssüf ki, bəzən əməl olunması vacib qaydalara zidd hallarla da rastlaşırıq. Məsələn, maskanı aksesuar kimi cibində, çantasında saxlayan və sadəcə ondan tələb olunduqda çıxarıb taxan məsuliyyətsiz şəxslərə də rast gəlirik.

O cümlədən qaydaları pozaraq saat 18:00-dan sonra gizli kafe və restoran işlədənlər aşkarlanır. Karantini pozan yol hərəkəti iştirakçıları da xeyli saydadır.

Elə sadalanan və daha bu kimi bir çox qayda pozuntuları və məsuliyyətsiz davranışlar ölkəmizdə son zamanlar yoluxma sayının artmasına səbəb olub. Neçə aylıq gərgin əməyin, aparılan ciddi mübarizənin nəticəsi olaraq qazanılan nailiyyət bəzi vətəndaşların məsuliyyətsizliyi sayəsində əldən verilə bilər. Daha ciddi və acı nəticələrlə üzləşə bilərik.

Bu bir reallıqdır ki, koronavirus həyatımızın bir parçasına çevrilib. Onu yox kimi saymaq, ondan qorxmamaq əvəzinə ona qarşı davranışları, mübarizə qaydalarını öyrənmək mütləqdir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı söyləyib ki, bütün dünya ölkələri əhalini sərt karantin rejimindən çox bu virusla birgə yaşamağa alışdırır. Onun sözlərinə görə, biz virusla birgə yaşamalıyıq: "Bütün tədbirlərə baxmayaraq, virus bizimlə qalacaq. Yaxın bir il ərzində vaksinin əldə edilməsi gözlənilmir. Antivirus dərman da yoxdur. Bu baxımdan biz qaydalar çərçivəsində yaşamağa alışmalıyıq".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Hava Hücumundan Müdafiə bölmələri təlim-döyüş tapşırıqlarının icrası üçün mövqe rayonlarını tutublar

Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində Hava Hücumundan Müdafiə bölmələri yaşayış məntəqələrinin, müxtəlif təyinatlı obyektlərin və canlı qüvvənin şərti düşmənin hava hücumu vasitələrindən müdafiəsi üzrə təlim-döyüş tapşırıqlarının icrası məqsədilə yürüş edərək mövqe rayonlarını tutublar.





Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Hava Hücumundan Müdafiənin döyüş heyətləri, həmçinin təlimə cəlb olunan şəxsi heyət və döyüş texnikasının düşmənin aviasiya vasitələrinin atəş zərbələrindən müdafiəsini təmin edəcəklər.



# DTX və Baş Prokurorluq Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin vəzifəli şəxslərinin qanunazidd əməlləri barədə birgə məlumat yayıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən inkişaf siyasətinin mərkəzində aşkarlıq və şəffaflığın, vətəndaşa layiqli xidmət missiyası dayanmaqla dövlət idarəçiliyinin əsas prioritetini vətəndaş məmnuniyyətinin təmin olunması, onları narazı salan halların aradan qaldırılması təşkil edir. Təəssüf ki, dövlətimizin başçısının müəyyən etdiyi siyasi kursun əksinə olaraq, son dövrlərdə bəzi məmurların timsalında vəzifə səlahiyyətlərindən öz şəxsi və maddi maraqları naminə sui-istifadə halları müşahidə olunur. Cəmiyyətimiz tərəfindən ikrahla qarşılanan bu kimi əməllər qətiyyətlə ifşa edilir və belə hərəkətlərə yol verən məmurlar qanun qarşısında cavab verirlər.

Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsinin və toxunulmazlığının, o cümlədən sərhəd sularında rejimə əməl olunmasının təmin edilməsində bəzi vəzifəli şəxslərin öz maraqları naminə bu sahədə dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərinin qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

Son dövrlər Azərbaycan Respublikası vətəndaşlarının Xəzər dənizində dövlət sərhədini qanunsuz keçərək həmsərhəd ölkələrin ərazi sularında balıq ovu ilə məşğul olmaları, müqabil tərəfdən silah tətbiqi nəticəsində insan tələfatı və onların tutulub saxlanılmaları ilə bağlı baş vermiş hadisələr həmin tədbirlər çərçivəsində araşdırılıb.

Keçirilmiş birgə əməliyyat-istintaq tədbirləri nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) rəis müavini, 2013-cü ildən 2020-ci ilin fevral ayınadək DSX Sahil Mühafizəsinin rəisi vəzifəsində xidmət etmiş general-leytenant Nağıyev Əfqan Vəli oğlu və onun tabeliyində olan DSX Sahil Mühafizəsinin vəzifəli şəxsləri - polkovnik Pənahov Nemət Hacı oğlu, polkovnik-leytenant Vəliyev Elçin Vaqif oğlu, polkovnik Əzizov Samiq Yusif oğlu, polkovnik-leytenant Muradov Sakit Yusif oğlu, mayor Namazov Müzəffər Qafil oğlu və digərləri qabaqcadan əlbir olan bir qrup şəxs halında vəzifə səlahiyyətlərindən istifadə edərək Xəzər dənizində balıq ovunun aparılmasına və dənizə balıq ovu ilə bağlı sərbəst çıxışlarına şərait yaradılması üçün bu fəaliyyətlə məşğul olan çoxsaylı Azərbaycan Respublikası vətəndaşlarından müxtəlif məbləğlərdə pulu rüşvət qismində istəməklə alıblar. İstintaq zamanı müəyyən edilib ki, qeyd olunan vəzifəli şəxslər tərəfindən vətəndaşlardan rüşvət qismində tələb edərək alınmış külli miqdarda pul vəsaitləri hər ayın sonunda Əfqan Nağıyevə onun xidməti otağında təqdim edilib. Əfqan Nağıyev isə qrupun digər üzvləri arasında bölüşdürülməsi məqsədilə həmin yığılan pul vəsaitinin müəyyən faizini onlara geri qaytarıb.

Məhkəmə qərarları əsasında DSX-nin adıçəkilən vəzifəli şəxslərinin xidməti otaqlarına və yaşadıqları ünvanlara keçirilmiş baxış zamanı onların qəbul etdikləri pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, ayrı-ayrı valyutalarda saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilərək götürülüb.

Faktla bağlı Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs halında rüşvət alma) maddələri ilə cinayət işi başlanılıb. Həmin şəxslər təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində Bakı Hərbi Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbirləri və vəzifədən kənarlaşdırılma əlavə qətimkan tədbirləri seçilib.

Bununla yanaşı, balıqçılıq fəaliyyəti ilə məşğul olan şəxslərdən ayrı-ayrı vaxtlarda müəyyən məbləğlərdə vəsaiti toplayaraq qeyd edilən əlbir qrupun üzvlərinə çatdırılmasında köməkçi qismində iştirak etməsində şübhəli bilindiyi üçün, balıqçılıqla məşğul olan Bakı şəhər sakini Abdullayev Arif Cəfər oğlu, Quliyev Xalis Xudamurad oğlu və 2003-cü ildən 2017-ci ilədək Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Hövzəsində Bioresursların Artırılması və Mühafizəsi Departamentinin Sumqayıt-Xaçmaz sektorunun müdiri vəzifəsində işləmiş Paşayev Fikrət Həsənağa oğlu təqsirləndirilən şəxs qismində cəlb edilməklə onlara Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan edilərək barələrində müvafiq qətimkan tədbirləri seçilib.

Həmçinin istintaqla müəyyən edilib ki, Fövqəladə Hallar Nazirliyinin Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin Bakı və Abşeron regional şöbəsinin sabiq inspektoru Babayev Rəhman Rəşid oğlu həmin vəzifədə işlədiyi müddətdə balıqçılardan rüşvət qismində pul alaraq qeyd olunan şöbənin müdiri Abdullayev Abdulla Əbülfəz oğluna çatdırmışdır. Hər iki şəxs Cinayət Məcəlləsinin 308.2-ci, 311.3.1-ci və 311.3.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində müvafiq qətimkan tədbirləri seçilib.

Hazırda cinayət işi üzrə digər təqsirli şəxslərin, eləcə də baş vermiş qanun pozuntularında iştirakı müəyyən edilən digər aidiyyəti dövlət qurumlarının əməkdaşlarının tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində birgə zəruri əməliyyat istintaq tədbirləri davam etdirilir.

## Təlimlərdə qoşunların yerdəyişməsi həyata keçirilib

Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, cəbhə və ordu aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması icra olunub.

## Təlimlərdə qoşunlar gecə vaxtı tapşırıqları icra ediblər

Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlər çərçivəsində qoşunların əməliyyat təyinatı rayonlarında gecə vaxtı yerdəyişməsi icra olunub.

Qoşunlar qarşıya qoyulmuş təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

## *Leyla ABDULLAYEVA:* "İşğalçı ölkənin sülhdən bəhs etməsi riyakarlığın son həddidir"

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Azərbaycanın işğal olunmuş ərazilərində təcavüzkar Ermənistan tərəfindən təşkil edilmiş qondarma "andiçmə" ilə bağlı Ermənistan XİN-in şərhinə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, KİV-ə açıqlamasında Leyla Abdullayeva deyib: "Azərbaycanın işğal olunmuş torpaqlarında təşkil edilmiş "andiçmə" ilə bağlı şounu Ermənistan XİN-in "demokratik proses" adlandırması bu təcavüzkar ölkənin mahiyyətini göstərməklə yanaşı, demokratiya anlayışından nə qədər uzaq olduğunu göstərir. Digər dövlətin beynəlxalq tanınmış ərazisini işğal edib, oradakı insanları etnik təmizləməyə məruz qoyub, insan hüquqlarını kobudcasına pozmaq müasir beynəlxalq hüquqi dildə təcavüz adlanır, demokratiya yox.

Ermənistan XİN-in istinad etdiyi "xalq" ifadəsinə gəldikdə isə, birincisi, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki ermənilər xalq yox, bu bölgədə yaşayan erməni icmasını təşkil edir. İkincisi, xalqların öz müqəddəratını müəyyənetmə prinsipindən danışmaq üçün isə Ermənistan XİN əvvəlcə bu prinsipin nə demək olduğunu öyrənməli, Helsinki Yekun Aktını oxumalı, daha sonra bu prinsiplərə düzgün istinadlar verməlidir.

İşğalçı ölkənin şərhində sülhdən bəhs etməsi isə riyakarlığın son həddidir. Sülhü düşünən ölkə işğalçılıq siyasəti yürütməz, sülh istəyən ölkə danışıqlar prosesinə əngəl törətməz və nəhayət, sülhü dəstəkləyən tərəf elə sülhün özünə başlıca təhdid olmaz".

## Dünyada koronavirusa yoluxanların sayı 5 milyonu keçdi

Dünyada yeni tip koronavirusa yoluxma hallarının sayı 5 milyonu keçmişdir. Bu barədə TASS agentliyi hökumətlərin rəsmi bəyanatlarına, habelə yoluxma hallarının qeydə alındığı ölkələrdəki mütəxəssislərin rəylərinə və mediaya istinadən xəbər verir.

Son məlumata görə, koronavirusa 5000890 nəfər yoluxmuşdur. Onların 6,55 faizi - 327724 nəfəri vəfat etmişdir. Son bir ayda yoluxanların sayı iki dəfə artmışdır.

Ən çox yoluxma halları ABŞ-da qeydə alınmışdır. Dünyada yoluxanların təxminən üçdəbiri bu ölkənin payına düşür. "The New York Times" qəzetinin xəbərinə görə, ABŞ-da 1558700 nəfərdən çox adam COVID-19-a yoluxmuş, onların 5,99 faizi (93300 nəfər) vəfat etmişdir. Rusiya ikinci yeri tutur (308705 yoluxma halı, 2972 ölü). Braziliya yoluxma hallarının sayına görə üçüncü yerə çıxmışdır. G1 portalının xəbərinə görə, bu ölkədə 293357 yoluxma halı qeydə alınmış, 18894 nəfər vəfat etmişdir.

# Beynəlxalq aləm

## ABŞ Çindən koronavirusla mübarizəyə 9 trilyon dollar ayırmağı tələb edir

ABŞ Çini dünyada koronavirus epidemiyasının yayılması ilə mübarizə aparmaq üçün 9 trilyon dollar ayırmağa çağırmışdır. Bu bəyanatla ABŞ Dövlət katibi Mayk Pompeo çıxış etmişdir.




Pompeo Çinin koronavirusla mübarizəyə verdiyi töhfənin bütün dünyaya dəymiş ziyandan qat-qat az olduğunu bildirmişdir. Onun dediyinə görə, pandemiya üzündən 90 min nəfərdən çox amerikalı həyatını itirmiş, 36 milyon nəfər işsiz qalmışdır.

Dövlət Departamentinin rəhbəri dünyaya dəymiş ümumi ziyanı 9 trilyon dollar məbləğində qiymətləndirmiş və Çindən kompensasiya ödəməyi tələb etmişdir. O, həmçinin qeyd etmişdir ki, hazırda ABŞ vaksin yaradılmasına və humanitar yardım göstərilməsinə 10 milyard dollar yönəltmiş, Çin isə cəmi 2 milyard dollar ayırmışdır.

## Liviyada qiyamçıların hava hücumundan müdafiə sistemləri məhv edildi



Liviya legitim hökumətinin qoşunları qiyamçı general Xəlifə Həftərin başçılıq etdiyi qanunsuz "Liviya milli ordusu"nun (LMO) mövqelərinə hücum edib bir sıra hava hücumundan müdafiə sistemlərini məhv etmişdir. Bu barədə "Sinxua" agentliyi Liviya Silahlı Qüvvələrinin nümayəndəsi Məhəmməd Qununuya istinadən xəbər verir.

Məlumata görə, srağagündən bəri ölkənin müxtəlif bölgələrində qiyamçıların altı sistemi sıradan çıxarılmışdır. Hökumət qoşunları Rusiya istehsalı olan "Pantsir" hava hücumundan müdafiə sistemlərinin məhv edilməsinin videosunu da yaymışdır.

Öz növbəsində LMO elan etmişdir ki, Liviya tarixində ən böyük hava əməliyyatı keçirməyə hazırlaşır. Qiyamçıların nümayəndəsi Səqr Cəruşi bildirmişdir ki, "Türkiyənin bütün işğal edilmiş Liviya şəhərlərindəki obyektləri Liviya ordusunun təyyarələri üçün qanuni hədəfdir". O, mülki əhalini LMO-nun hücumuna məruz qala biləcək obyektlərdən uzaq durmağa çağırmışdır.

## "Amfan" Hindistan və Banqladeşdə 14 nəfərin həyatına son qoydu

Güclü "Amfan" siklonu Şərqi Hindistan və Banqladeşi vurmuş, nəticədə azı 14 nəfər həlak olmuş, minlərlə ev dağılmışdır. Bu barədə yerli KİV xəbər verir.



Siklonun əsas zərbəsini Hindistanın Qərbi Benqaliya ştatı qəbul etmişdir. Ştatın baş naziri Mamata Banerci bildirmişdir ki, azı 10 nəfər həlak olmuşdur: "Biz COVID-19-la müqayisədə daha çox ziyan çəkdik, dağıntılarla üzləşdik".

Məlumata görə, qonşu Banqladeşdə azı 4 nəfər təbii fəlakətin qurbanı olmuşdur.

Hindistan hakimiyyət orqanları məlumat vermişdir ki, Qərbi Benqaliya və Orissa ştatlarından təxminən 450 min nəfər köçürülmüşdür. KİV-in xəbərinə görə, Banqladeş hökuməti 2 milyondan çox sakini təxliyə etmiş, ordu hərbi hazırlıq vəziyyətinə gətirilmişdir.

# Paşinyanın karantin fırıldağı

## Ermənistan baş naziri fövqəladə vəziyyət rejimini uzatmaqla xalqın sağlamlığını deyil, öz mənafeyini güdür

Ermənistanda koronavirusun yayılmasının qarşısını almaq məqsədilə fövqəladə vəziyyət rejimi iyunun 13-dək artırılsa da, işğalçı ölkədə sosial-iqtisadi durum pandemiya ucbatından daha sürətlə pisləşməkdədir. Buna əsas səbəblərdən biri işğalçı ölkənin azsaylı əlaqədə olduğu dövlətlərlə münasibətlərinin tamamilə pozulmasıdır. Burada xüsusilə Rusiya və İran faktoru qeyd edilməlidir. Hər iki ölkədə pandemiya geniş yayıldığından onlar üçün Ermənistan arxa plana keçib. Belə halda Ermənistanın daxili resursları kifayət qədər məhdud olduğundan burada vəziyyət sürətlə pisləşir.

İşğalçı ölkədə qeyd olunur ki, fövqəladə vəziyyət müddətinin uzadılması ilə bağlı son qərar gözləniləndi. Bildirilir ki, baş nazir Nikol Paşinyan ölkədə referendum keçiriləcəyi təqdirdə hökumətin Konstitusiyaya dəyişiklik layihəsini dəstəkləmək üçün 650 min səs toplaya bilməyəcəkdi. Məhz bu amili nəzərə alan Paşinyan hökuməti mayın 14-dən etibarən fövqəladə vəziyyət rejiminin yenidən uzadılması haqqında qərar verib. Əks təqdirdə Ermənistan prezidenti ölkədəki fövqəladə vəziyyətin ləğvindən sonra 3 gün ərzində yeni referendum üçün tarix təyin etməyə borcludur.

"İravnuk" qəzeti yazır ki, Ermənistan Konstitusiyasının 206-cı maddəsinə əsasən, ölkə prezidenti referendum tarixini üç gündən gec olmayaraq təyin etməlidir. Əks təqdirdə böyük ehtimalla ölkədə vəziyyət yalnız pisləşəcək və bu da referendumun nəticələrini təhlükə altına alacaq: "Görünür ki, bütün bunları gözə alan Paşinyan ölkədə fövqəladə vəziyyət rejiminin yenidən uzadılmasına qərar verib. Ermənistanda artıq Paşinyan hökumətinin ölkədə fövqəladə vəziyyət rejiminin uzadılmasını insanların sağlamlığına deyil, daha çox öz hakimiyyətini qorumağa hesablandığı barədə fikirlər formalaşmaqdadır".

Bütün bunlar fonunda yerli ekspertlər də həyəcan təbili çalır, mövcud vəziyyəti dərin böhran kimi dəyərləndirir, eyni zamanda N.Paşinyan rejiminin ciddi imtahan qarşısında olduğunu söyləyirlər. Əgər hakimiyyət bu imtahandan çıxa bilməsə, erməni əhalisini ciddi sınaqlar gözləyir.

Bu arada o da məlum olub ki, Ermənistanda fiziki şəxslərə xaricdən göndərilən pulköçürmələrinin həcmi ötən aylarla müqayisədə 14,3 milyon dollar azalıb. Ermənilər bunu Rusiyadan pulköçürmələrinin həcmindəki ümumi azalmanı daha çox rus rublunun ABŞ dollarına nisbətdə zəifləməsi ilə əlaqələndirirlər.

"Lragir" nəşri yazır ki, bu, xaricdən göndərilən ianələr hesabına duruş gətirən bir ölkə üçün böyük itkidir. Vurğulanır ki, bu gün Ermənistanda ailə başçılarının əksəriyyəti çörək ardınca daha çox Rusiyanı seçirlər. Amma indi onların koronavirusla əlaqədar qazanc əldə edə bilmədiklərini nəzərə alsaq, hazırda Ermənistanda başsız qalan ailələrin nələrlə üzləşdiyini təsəvvür etmək elə də çətin deyil.

Koronavirus Ermənistanın çöküşünü daha da sürətləndirir. Bunu artıq erməni siyasilər də açıq şəkildə etiraf etməkdədirlər. Erməni politoloq Akop Koçaryan bildirib ki, Ermənistanda yüz minlərlə insan yarıac yaşayır və bu, gələcəkdə ölkə üçün böyük fəsadlar törədəcək. Ermənistanda başsız qalan erməni ailələri isə hələ də ümidlə Rusiyadan pul gözləməkdədirlər.

"News.am" saytı isə yazır ki, Rusiyadan pulköçürmələrinin azalmasının əsas səbəbi ABŞ dollarının martda rubla qarşı kəskin möhkəmlənməsi - fevral ayı ilə müqayisədə 14,5 faiz artmasıdır. Bu səbəbdən mart ayında pulköçürmələri həcmində itkilər 7,5 milyon dollara çatıb. Ermənistan Mərkəzi Bankından verilən məlumata görə, Ermənistanda ABŞ-dan edilən pulköçürmələrinin 70 faizdən çoxu Yerevan, Rusiyadan edilən pulköçürmələrin 80 faizdən çoxu isə bölgələrdəki ailələr tərəfindən qəbul edilib.

Bütün bunlar ondan xəbər verir ki, Ermənistanı qarşıdakı dövrdə daha böyük böhran gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## BİLDİRİŞ

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi tərəfindən elan olunmuş dəftərxana və təsərrüfat mallarının elektron satın alınması üzrə açıq tenderin müddəti uzadılmışdır.

İddiaçılar ilkin sənədləri 03 iyun 2020-ci il saat 12:00-dək, tender təklifi və təklifin zəmanətini isə 11 iyun 2020-ci il saat 12:00-dək Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 iyun 2020-ci il tarixdə saat 13:00-da açılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən Evdə sosial xidmətlər göstərən əməkdaşların xüsusiləşdirilmiş avadanlıqlarla təchizatı və göstərdikləri xidmət səviyyəsinin ölçülmə prosesinin avtomatlaşdırılması işləri üzrə 30.04.2020-ci il tarixdə elan olunmuş müsabiqənin Tender komissiyasının 21.05.2020-ci il tarixli protokoluna əsasən prosedurun davamından imtina olunur.

***Tender komissiyası***

## Şəki Şəhər İcra Hakimiyyəti 2020-ci ildə Şəki şəhərində görüləcək abadlıq işlərinin satın alınması üçün elektron satınalma vasitəsilə keçirilən *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT - 320 (üç yüz iyirmi) manat**

**Təşkilat: Şəki Şəhər İcra Hakimiyyəti**
**HESAB: AZ03AIIB32051019447000201170**
**VÖEN: 3000104011**
**BANK: "Kapital Bank" ASC Şəki filialı**
**Kodu: 200703**
**VÖEN BANK: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**
**Əlaqələndirici şəxs: Alxasov Taleh, tel: (02424) 4-28-70**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17.06.2020-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **25.06.2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **29.06.2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Azərenerji" SCADA idarəetmə sistemini yeniləyir

Enerji sistemində müasir avadanlıqlar və proqram təminatı ilə təchiz ediləcək yeni SCADA sistemi qurulur.

Yeni sistem əsas və Ehtiyat Dispetçer İdarəetmə Mərkəzindən, 7 Regional Monitorinq Mərkəzindən ibarət olmaqla, ilkin mərhələdə 21 elektrik stansiyasını və 70 yarımstansiyanı əhatə edəcək. Bu barədə məlumat verən "Azərenerji" ASC-nin İctimaiyyətlə əlaqələr və media mərkəzinin rəisi Teymur Abdullayev bildirib ki, artıq yeni SCADA sisteminə qoşulacaq enerji obyektlərində müvafiq işlər aparılıb, o cümlədən yeni avadanlıqların yerləşəcəyi obyektlərdə otaqların təmir-bərpa işləri yekunlaşdırılıb.



Yeni SCADA sistemi layihəsi çərçivəsində müasir dispetçer telefon rabitəsi yaradılır və təhlükəsizlik sistemi isə kiberhücumlara qarşı tam cavab verə biləcək səviyyədə qurulur. Rabitə və telekommunikasiya avadanlıqları xarici ölkələrdən gətirilir. Ümumi uzunluğu 1300 km olacaq əlavə fiber-optik kabelin çəkilişi davam edir. Yeni radiorabitə sisteminin təkmilləşdirilməsi üzrə işlər aparılır.

İsveçrənin ABB şirkəti ilə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq 1 avqust 2019-cu il tarixdən layihənin icrasına başlanılıb və yeni SCADA layihəsinin 31 dekabr 2020-ci il tarixdə tam başa çatdırılması nəzərdə tutulur.

Yenilənəcək SCADA sistemi müasir idarəetməni nəzərdə tutur və tam avtomatlaşdırılır. Bununla etibarlılıq və təhlükəsizlik gücləndirilməklə yanaşı, qonşu ölkələrin sistem operatorlarının istifadə etdikləri SCADA sistemlərinin məlumat mübadiləsinin, o cümlədən idxal-ixrac əməliyyatlarının yüksək səviyyədə təmin edilməsinə bilavasitə dəstək olur.

## DSX-nin sərhəd gözətçi gəmisi dənizdə texniki nasazlıq yaranan "Xocean-2" aparatını təhlükəsiz əraziyə çıxarıb









"BP" şirkəti ilə bağlanmış müqavilə əsasında Xəzər dənizinin Azərbaycana mənsub sektorunda yerləşən neft-qaz boru kəmərlərinin sualtı yoxlanılmasını həyata keçirən "Olimp Engeneering" şirkətinin "Xocean-2" aparatında mayın 21-də nasazlıq yaranıb.

İdarəetməni itirməsi səbəbindən aparat küləyin təsiri ilə açıq dənizə doğru səmtlənib. Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən bildiriblər ki, "Olimp Engeneering" şirkətinin rəhbərliyi aparatın axtarışında kömək göstərilməsi məqsədilə Xidmətin Sahil Mühafizəsinə müraciət edib. Dövlət sərhədinin mühafizəsində olan 304-cü sərhəd gözətçi gəmisi "Xocean-2" aparatının axtarış tədbirlərinə cəlb edilib. İki saat davam edən axtarışlardan sonra aparat Neft Daşlarından 15 kilometr cənub-qərbdə aşkarlanaraq dalğalı hava şəraitində yedəyə alınıb və təhlükəsiz yerə gətirilib.

## "Azərişıq" ASC Ağdam rayonu, Əfətli, Küdürlü, Hacıməmmədli, İsalar, Hacıturalı, Qəhrəmanbəyli, Həsənxanlı, Məmmədbağırlı kəndləri ərazisində 10 kV-luq hava xəttinin, 25/63/100/160/250/400 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1. Ağdam rayonu, Əfətli, Küdürlü, Hacıməmmədli, İsalar, Hacıturalı, Qəhrəmanbəyli, Həsənxanlı, Məmmədbağırlı kəndləri ərazisində 10 kV-luq hava xəttinin, 25/63/100/160/250/400 kVA gücündə KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması İştirak haqqı: 400 manat

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Aşət Ağayev (telefon: 440-39-93 daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **03 iyul 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **13 iyul 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **14 iyul 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikinti işlərinin satın alınması üçün keçirilən təkliflər sorğusunda "Az AVS" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Açıq Səhmdar Cəmiyyəti "Standard Insurance" Sığorta Şirkətinin sığorta fəaliyyətinin aparılmasına verilmiş lisenziyasının ləğv edilməsi barədə rəsmi məlumat

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 19.05.2020-ci il tarixli 24 nömrəli qərarı ilə Açıq Səhmdar Cəmiyyəti "Standard Insurance" Sığorta Şirkətinin sığorta fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş lisenziyası ləğv edilmiş və Sığortaçının idarəetmə orqanlarının səlahiyyətləri "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.4-cü və 109.1.2-ci maddələrinə əsasən Mərkəzi Bank tərəfindən təyin edilmiş müvəqqəti inzibatçıya keçmişdir.

Sığortaçı barəsində iflas prosedurunun başlanılmasına dair ərizə ilə Mərkəzi Bank tərəfindən məhkəməyə müraciət edilmişdir.

***İdarə Heyəti***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Baş Prokurorluğunda 2020-ci ildə inventarların, mal-materialların, avadanlıqların satın alınması məqsədilə keçirilən açıq tenderin nəticələrinə görə aşağıdakı hüquqi şəxslər qalib elan olunmuşlar:

LOT - 1. Dəftərxana ləvazimatlarının satın alınması: "Office Page" MMC
LOT - 2 . Təsərrüfat mallarının satın alınması: "Office Page" MMC
LOT - 3. Ofis və kabinet mebellərinin satın alınması: "İDEAL OFFİCE" MMC
LOT - 4. Avadanlıqların satın alınması: "Ultra Technologies" MMC
LOT - 5. Tikinti materiallarının satın alınması:"Piramida-F.R" MMC
LOT - 6. Katriclərin satın alınması: "CaspianSupplies AZE" MMC
LOT - 7. Geyim formasının satın alınması: "Monolit" MMC

Qalib təşkilatlarla müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən " Azərbaycan" qəzetinin 10 aprel və 28 aprel 2020-ci tarixli nömrələrində dərc edilmiş Özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə tələb olunan aktivlərin (inventarların, maşın və avadanlıqların) satın alınması ilə bağlı keçiriləcək açıq tender Tender komissiyasının qərarına əsasən təkliflərin son təqdimat tarixi 02 iyun 2020-ci il saat 17:00-a qədər və zərflərin açılışı isə 03 iyun 2020-ci il saat 15:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

DOST Agentliyi tərəfindən elan edilmiş minivan tipli avtonəqliyyat vasitələrinin satın alınmasına dair keçirilməsi nəzərdə tutulan açıq tenderdə təkliflərin qəbulu vaxtı 21 may 2020-ci il saat 18:00-a, təkliflərin açılışı vaxtı 22 may 2020-ci il saat 15:00-a dəyişdirilmişdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzova anası
**FATMA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru, dosent Fariz Əhmədova atası
**SALEH ƏHMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun rəhbərliyi və kollektivi iş yoldaşları Adilə Hacıyevaya əzizi
**NİSƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7526
Sifariş 1272
Qiyməti 40 qəpik